Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

23 OKTYABR 2019-cu il

№ 188 (4086)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# PREZİDENTİN ERMƏNİLƏR ÜZƏRİNDƏ «VALDAY» VƏ AŞQABAD TRIUMFLARINDAN SONRA RADİKALLARIN BAKIDA ARXADAN ZƏRBƏLƏRİ...

■ səh. 9 ■

Prezidentin yaşı 70-dən yuxarı məmurlara mesajlarındakı əsas elementlər - hörmət, qətiyyətli çağırış, əməyə qiymət...

■ səh. 4 ■

Heydər Əliyev bu qorxaq liderlərin tayı deyildi - Prezidentin müqayisəsi nə qədər uğurlu sayılır...

■ səh. 3 ■

Əli Həsənov sabotajçı məmurlar-media sövdələşmələrinin ünvanını bir az da konkretləşdirdi

■ səh. 5 ■

ABŞ səfirliyi Azərbaycanın daxili işinə müdaxilədə bu dəfə əvvəlki hədləri gözləmədi...

■ səh. 7 ■

İlqar Məmmədovun "qadınlar dəstəsi" ailənin mənəvi əsasları üçün təhlükəli konvensiyanı Azərbaycana gətirmək istəyir

■ səh. 10 ■

Suriyadan çəkilən ABŞ əsgərlərinə atılan yumurtalar - sadə kürdlər PKK terrorçuları ilə birlikdə olduğunu göstərir

■ səh. 11 ■

Valyuta ehtiyatlarımızda avro, yuan və qızılın payı sürətlə artacaq - uduşumuz nə olacaq...

■ səh. 13 ■

Turistlərin Azərbaycana saxta dollar partiyaları gətirmək təhlükəsi getdikcə artır

■ səh. 14 ■



■ səh. 6 ■

## «Qarabağ Azərbaycandır və nida»nın ardınca onlar hərbi büdcəni 20 faiz artırdı» - Ermənistan xofda və şokda...



**Prezident iri məmurlarla işgüzar qəbulun yeni formasını tətbiq etdi - analitik reaksiyalar...**

■ səh. 3 ■

Son aksiyadan ziyan görmüş 200 min dinc sakindən kim üzr istəməli idi - Əli Həsənov, ya radikalların başçıları...

■ səh. 5 ■



**Daha bir Mərkəzi Asiya ölkəsinə Azərbaycan üzərindən Avropaya yük daşımaq imkanı açıldı...**

■ səh. 12 ■

■ səh. 8 ■

Əli Həsənov: "Azərbaycan hakimiyyəti bütün situasiyaya nəzarət etmək gücündə, imkanında və iradəsindədir"



■ səh. 9 ■

Nyu-York Jurnalistlər Komitəsinin ağ yalanı - Bakıda icazəsiz aksiyalarda polis jurnalistlərə barmaq ucu ilə toxunmadı...



■ səh. 11 ■

Fransada erməni qəzetinin redaksiyasına basqını da türklərin üstünə atmaq istəyirlər



■ səh. 14 ■

İsveçrə bankı Azərbaycan kredit bazarına girmək istəyir - kredit faizləri düşəcəkmi...



■ səh. 15 ■

Dövlətin kinematoqrafiyaya ayırdığı pullar hara və necə xərclənir...



## Qoşulmama Hərəkatının Bakı sammitində 60-a yaxın ölkə lideri iştirak edəcək, dörd sənəd qəbul olunacaq

*Ermənistan sammitdə iştirak etməyəcək*

**158 ölkə Qoşulmama Hərəkatının oktyabrın 25-26-da Bakıda keçiriləcək sammitində öz iştirakını təsdiqləyib. Bunu xarici işlər nazirinin müavini Ramiz Həsənov deyib.**




"158 ölkə Qoşulmama Hərəkatının 25-26 oktyabr tarixlərində Bakıda keçiriləcək sammitində öz iştirakını təsdiqləyib", - deyə R.Həsənov oktyabrın 22-də brifinqdə bildirib.

Onun sözlərinə görə, sammitdə 4 sənədin qəbul edilməsi nəzərdə tutulur.

R.Həsənov əlavə edib ki, 246 yerli və xarici jurnalist sammiti işıqlandırmaq üçün akkreditasiyadan keçib.

Ramiz Həsənov deyib ki, Venesuela prezidenti Nikolas Maduronun Qoşulmama Hərəkatının oktyabrın 25-26-da Bakıda keçiriləcək sammitinə gələcəyi gözlənilir.

"Maduronun sammitdə iştirak edəcəyini gözləyirik", - deyən R.Həsənovun sözlərinə görə, ümumilikdə sammitdə 60-a yaxın prezident və hökumət başçısının iştirakı gözlənilir.

Sammitdə Qoşulmama Hərəkatına sədrlik üç il müddətinə Venesueladan Azərbaycana keçəcək.

Azərbaycanın xarici işlər nazirinin müavini Ramiz Həsənov hesab edir ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Qoşulmama Hərəkatının Bakıda keçiriləcək sammiti çərçivəsində nazirlər görüşündə iştirak etmək ehtimalı azdır.

"Daha əvvəl S.Lavrovun Qoşulmama Hərəkatının nazirlər görüşündə iştirak edəcəyi planlaşdırılırdı. Görünür, onun səfəri baş tutmayacaq. Çünki bu günlərdə, 23-24 oktyabr tarixlərində Soçidə Rusiya-Afrika sammiti keçiriləcək", - deyə o, bildirib.

Qoşulmama Hərəkatının Sammiti oktyabrın 25-26-da Bakıda keçiriləcək.

Sammitdən əvvəl 21-22 oktyabr tarixlərində rəsmi şəxslərin hazırlıq görüşü və 23-24 oktyabr tarixlərində nazirlərin hazırlıq görüşü keçiriləcək.

Ermənistan nümayəndə heyəti Qoşulmama Hərəkatının oktyabrın 25-26-da Bakıda keçiriləcək sammitində iştirak etməyəcək. Bu barədə də xarici işlər nazirinin müavini Ramiz Həsənov məlumat verib.

"Ermənistan Qoşulmama Hərəkatının sammitində iştirak etmək üçün müraciət etməyib. O, təşkilatda müşahidəçi ölkə olsa da, təşkilatın saytında qeydiyyatdan keçən iştirakçıların siyahısında yoxdur", - deyən R.Həsənov onu da bildirib ki, Azərbaycan bu və ya digər ölkənin sammitdə iştirakına qarşı olmayıb.

# Şahin Mustafayev Baş nazirin müavini təyin edildi

**Prezident İlham Əliyev Şahin Mustafayevin Azərbaycan Respublikasının İqtisadiyyat naziri vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.**



Prezidentin digər sərəncamı ilə Şahin Mustafayev Azərbaycan Respublikası Baş nazirinin müavini təyin edilib.

Prezident İlham Əliyev oktyabrın 22-də Şahin Mustafayevi yeni vəzifəyə təyin olunması ilə əlaqədar qəbul edib.

# Nazir Vilayət Eyvazov Polis Akademiyasını bitirən müdavimlərə təyin olunduqları zabit vəzifələrində uğurlar arzuladı

**Daxili İşlər Nazirliyi mətbuat xidmətinin məlumatına görə, oktyabrın 22-də Daxili İşlər Nazirliyində bu il Polis Akademiyasını bitirmiş, sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət edən əməkdaşların paytaxtın polis orqanlarında vakant olan zabit yerlərinə təyin edilmələrinə həsr olunmuş tədbir keçirilib.**




Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov təyinatın şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında gerçəkləşdiyini xatırladıb və son illər bu praktikadan geniş istifadə olunduğunu bildirib. Nazir qeyd edib ki, Prezident İlham Əliyev ölkəmizin gələcəyinin yüksək intellektə, geniş dünyagörüşünə, dərin biliyə və işgüzarlığa malik, mükəmməl təhsil almış, dövlətçiliyə sadiq, vətənpərvər gənclərdən asılı olduğunu dəfələrlə vurğulayıb. O deyib ki, ümumilikdə, kadrların hazırlıq səviyyəsinin artırılması, onların peşəkarlığa, xidməti borca sədaqətə görə vəzifədə irəli çəkilmələri, gənc əməkdaşlara lazımi diqqət və qayğı göstərilməsi ölkə və DİN rəhbərliyinin fəaliyyətində prioritet istiqamətlərdəndir.

Baş Kadrlar İdarəsinin rəisi, polis general-mayoru Rafiq Abbasov Nazirliyə 45 əməkdaşın dəvət edildiyini bildirib və namizədlərin siyahısını elan edib. Daha sonra iddiaçılar orta rəis heyətinə aid müxtəlif vəzifələrin qeyd edildiyi xüsusi zərfləri çəkiblər.

Onların nəzərinə çatdırılıb ki, püşkatmada iştirak etmiş bütün əməkdaşlar daxili işlər nazirinin müvafiq əmrləri ilə "polis leytenantı" xüsusi rütbəsi verilməklə zabit vəzifələrinə təyin olunur.

Tədbirə yekun vuran daxili işlər naziri gənc zabitləri təbrik edərək onlara tapşırıq və tövsiyələrini verib. Qeyd olunub ki, bu gün uğurla davam etdirilən cinayətkarlıqla qətiyyətli mübarizə, ölkəmizdə sabitliyin təmini, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi qorunması kursu daxili işlər orqanlarının da üzərinə böyük və məsul vəzifələr qoyur.

O, vətəndaşlara xidmətin şərəfli bir vəzifə olduğunu, ölkə Prezidentinin rəhbərliyi altında hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının gərgin səyləri hesabına respublikamızda əmin-amanlığın yaradıldığını, cəmiyyət həyatının bütün sahələrində müşahidə edilən hərtərəfli inkişafın əsasında məhz sabitlik amilinin dayandığını, bu istiqamətdə əldə olunmuş uğurların hər zaman yüksək qiymətləndirildiyini nəzərə çatdırıb.

Vilayət Eyvazov gənc zabitlərə çətin və şərəfli xidmətlərində uğurlar arzulayıb, polis adını uca tutmalarını, daim bilik və təcrübələrini artırmalarını, öz üzərlərində işləmələrini, ən müasir informasiya texnologiyalarına yiyələnmələrini, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını, fəaliyyətlərində peşəkar həmkarlarının təcrübəsindən yararlanmalarını tövsiyə edib.

Nazir əmin olduğunu bildirib ki, onlar bu yöndə səylərini əsirgəməyəcək, dövlətçiliyə, xidmət edəcək, göstərilmiş etimadı layiqincə doğruldacaqlar. Gənc zabitlər adından çıxış edən Nərimanov RPİ-nin əməkdaşı Haldun Muradlı gənclərə göstərilən xüsusi diqqətə və qayğıya görə ölkə və DİN rəhbərliyinə minnətdarlığını bildirib, göstərilən yüksək etimadı öz fəaliyyətləri ilə doğruldacaqlarına söz verib.

# Azərbaycanı qaralamağa çalışan Avroittifaqın mərkəzində yüzlərlə insan polis zorakılığına qarşı küçələrə çıxdı




**Belçikanın paytaxtı Brüssel şəhərində polis zorakılığına etiraz olaraq aksiya keçirilib.**

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, Belçikadakı müxtəlif dərnəklərin və qeyri-hökumət təşkilatlarının çağırışı ilə 200-ə yaxın nümayişçi Brüssel şəhərinin mərkəzindəki Albertina Meydanına toplaşıb.

Belçika polisinin xüsusilə etiraz aksiyalarında "həddindən artıq zorakılıq" etməsinə qarşı keçirilən nümayişdə "Ədalət olmazsa barış olmaz", "Polis zorakılığına son", "İrqçi polisə son" və "Biz ədalət istəyirik" kimi şüarlar səsləndirilib.

Etirazçılar "Polis zorakılığına qarşı durun" yazılmış pankartlar açıblar.

Bütün bunlara baxmayaraq, etirazçılar ətrafında sıx təhlükəsizlik tədbirləri də diqqətlərdən yayınmayıb.

Onu da qeyd edək ki, Brüsseldə baş verənlər oktyabr ayının 19-da Bakının mərkəzində icazəsiz aksiyadan sonra baş verib. Həm də, polis zorakılığı əleyhinə keçirilən bu aksiya Azərbaycanda polisin qanun çərçivəsində atdığı addımlara zorakılıq, işgəncə donu geyindirməyə çalışan Avropa İttifaqının mərkəzi hesab edilən Brüsseldə baş verir. Həm də elə İttifaqın, "polis zorakılığı" adı ilə Azərbaycanı qaralayan bəyanatından iki gün sonra, paytaxtı Brüssel yüzlərlə insanın polis zorakılığına qarşı etiraz aksiyasına səhnə olur...

Fransada, Barselonada, başqa adını çəkmədiyimiz Qərb ölkələrində, hətta onlarla insanın ölümü, şikəst olması ilə nəticələnən zorakılıqlara susdular. Vəziyyət o həddə çatdı ki, bütün dünyaya demokratiya dərsi keçməyə çalışan Avroittifaqın mərkəzində insanlar polis zorakılığına qarşı küçələrə çıxır...

Brüsselin mərkəzində polis zorakılığına qarşı etiraz aksiyası əslində Avropa İttifaqının ikili standartlar siyasətini növbəti dəfə ifşa edir.

***TAHİR***

**Prezident öz ərizələri ilə ona müraciət edən Baş nazirin iki sabiq müavinini qəbul etdi. Həm Hacıbala Abutalıbov, həm də Əli Həsənovla təkbətək söhbət etdi və həmin söhbətin məzmunu televiziyalar tərəfindən yayımlandı. Qeyd edək ki, ölkə başçısı son günlərdə bir neçə belə qəbul keçirib.**



# Prezident iri məmurlarla işgüzar qəbulun yeni formasını tətbiq etdi - analitik reaksiyalar...

***İlqar Hüseynli:*** *"Prezidentin yeni işgüzar qəbul forması da həmin nəzarətin bir növünə aid edilə bilər"*

Formaca yeni olan bu görüşlərdə məmurlar onun tərəfindən tək qəbul edilir və görüşün ümumi məzmunu televiziyada yayımlanır. Bunda əvvəl eyni formada görüş "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov və Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayevlə keçirildi. Ölkə başçısının iri məmurlarla yeni formada görüşməsi hansı effektə səbəb ola bilər?

Ekspert İlqar Hüseynli qəzetimizə açıqlamasında bildirdi ki, yeni formatın uğurlu olacağına ümid etməliyik: "Son iki istefa qəbulundan əvvəl Prezident başqa iki məmuru qəbul etdi. Bunlar o məmurlardır ki, böyük büdcə ilə işləyirlər və cəmiyyətdə həmin qurumlarda korrupsiyanın olması ilə bağlı müxtəlif fikirlər səslənir. Görüş formatı birbaşa idarəetmənin effektini artıra bilməz. Ancaq bunun müsbət nəticələrin əldə olunmasına yaxşı təsiri ola bilər. Çünki yeni görüş formatı həm də hesabat xarakteri daşıyır. Ümumi müşavirələrdə məmurlar bir qədər proqram xarakterli çıxış edirlər. Bəzən bütün kiçik detalların üzərində durmağa, ətraflı araşdırma aparmağa vaxt yetmir. Bu baxımdan da belə formatın seçilməsi məqsədəuyğundur. Yəni ölkə başçısı hər sahəyə rəhbərlik edən şəxslə ayrılıqda görüşür, həmin sahədəki neqativlikləri müzakirə etmək üçün kifayət qədər zaman olur. Bu da məmurların məsuliyyətini artırır. Xüsusilə də görüşün məzmununun media tərəfindən işıqlandırılması çox yaxşıdır. Dürüst və şəffaf idarəetmə sisteminin oturuşması yalnız ölkə başçısından asılı deyil. Burada məmurların da məsuliyyəti böyük olmalıdır. Ölkə başçısının qəbul etdiyi iki qurum rəhbəri yenidir.

**Onlardan əvvəlki rəhbərlərin zamanında qurumlarda ciddi korrupsiyalara yol verilib. Hesab edirəm ki, həmin detalların da araşdırılmasına çalışılmalıdır. Yeni rəhbərlərə lazımi tapşırıqlar verməklə yanaşı, keçmişdən qalanların da araşdırılması aparılmalıdır".**

## *"Birbaşa hesabatlıq məsuliyyətini yaradır"*

Ekspertin sözlərinə görə, korrupsiyaya və digər neqativliklərə son qoymaq üçün ciddi nəzarət mexanizmləri olmalıdır: "Bir hüquqi nəzarətlə bunu təmin etmək olmur. Bura ictimai nəzarətdən tutmuş, başqa vasitələri də əlavə etməliyik. Prezidentin yeni işgüzar qəbul forması da həmin nəzarətin bir növünə aid edilə bilər. Çünki birbaşa hesabatlıq məsuliyyətini yaradır. Biz ümid edək ki, Prezidentin qəbul edib müəyyən tapşırıqlar verdiyi məmurlar da öz işlərinin öhdəsindən layiqincə gələcəklər. Əvvəl buraxılan səhvləri təkrarlamaq olmaz. Xüsusilə də yol infrastrukturu ilə bağlı nəzarət daha güclü olmalıdır. Biz vaxtilə böyük layihələrdə yol verilən korrupsiyadan, şişirdilmiş rəqəmlərdən yazırdıq. Eyni zamanda, məcburi köçkünlər üçün dövlət hesabına tikilən mənzilləri biz başqa beynəlxalq donorların hesabına tikilənlərlə müqayisə edəndə ortaya ciddi fərqlər çıxırdı. Ümid edək ki, Prezidentin yeni yanaşması bu sahələrdə inkişafa və məsuliyyətin artmasına səbəb olacaq".

***Məhəmmədli QƏRİBLİ***

---

**Bəzi indiki dırnaqarası özünü lider adlandıran qorxaqlardan fərqli olaraq, Heydər Əliyev hər bir təhlükəyə, məhrumiyyətə getməyə hazır idi. Bunu Prezident İlham Əliyev Baş nazirin müavini Hacıbala Abutalıbovu vəzifədən azad edilməsi ilə bağlı verdiyi ərizəsi ilə əlaqədar qəbul etdiyi zaman deyib.**



# Heydər Əliyev bu qorxaq liderlərin tayı deyildi - Prezidentin müqayisəsi nə qədər uğurlu sayılır...

***Elçin Mirzəbəyli:*** *"Ölkə başçısının bununla bağlı müqayisəsi tam yerində olmaqla yanaşı, reallığı əks etdirir"*

Ölkə başçısının sözlərinə görə, o vaxt ulu öndər Heydər Əliyevin xalq qarşısında nüfuzu çox yüksək idi və xalq ondan başqa heç kimi rəhbər vəzifəsində görmürdü: "O vaxt repressiya təhlükəsi çox böyük idi və Heydər Əliyevin hakimiyyətə gəlməsini əngəlləmək istəyənlər müxtəlif çirkin əməllərə əl atmışlar. Heydər Əliyevin yaxın silahdaşı Əjdər Xanbabayevi vəhşicəsinə qətlə yetirdilər, özü də nə vaxt? Həmin gün ki, Heydər Əliyev Moskvadan Bakıya gəlməli idi. Mən ondan bir gün qabaq Bakıya gəlmişdim ki, onu qarşılayım. Onun gəlişini əngəlləmək, ona hədə-qorxu gəlmək üçün günahsız bir insanı, ziyalını - Əjdər Xanbabayevi həmin o dəstə qətlə yetirdi. Düzdür, sonra onu öldürənlər öz layiqli cəzalarını aldılar və Heydər Əliyevin Azərbaycana qayıtmasını heç kim əngəlləyə bilmədi. Bütün təhlükələrə baxmayaraq, o, Bakıya gəldi, öz sözünü dedi. İndiki bəzi dırnaqarası özünü lider adlandıran qorxaqlardan fərqli olaraq, o, hər bir təhlükəyə, hər bir məhrumiyyətə getməyə hazır idi. Onun böyüklüyü bundadır".

Həqiqətən də Heydər Əliyev böyük siyasətçi olaraq bir sıra məhrumiyyətlərə, təhlükələrə sinə gərdi. Xalqın mənafeyi naminə böyük təhlükələrlə üzləşsə də, geri addım atmadı. Özünü "lider" hesab edən bəzi müxalifət təmsilçiləri kimi qorxaqlıq göstərmədi. O baxımdan, Prezidentin sözügedən müqayisəsi indiki dövrdə nə dərəcədə yerindədir?

Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, ölkə başçısının bununla bağlı müqayisəsi tam yerində olmaqla yanaşı, reallığı əks etdirir: "Azərbaycanın yaxın tarixində baş verən hadisələr çoxlarının yadındadır.

## *"Qorxaq olduqları üçün kritik situasiyalarda cəsarət ortaya qoya bilməyiblər"*

Hansı ki, öz vəzifə səlahiyyətlərinə sahib çıxa bilməyən insanların necə davrandığının şahidi olmuşuq. Eyni zamanda, bəzi radikal dağıdıcı qrupların rəhbərlərinin də siyasi proseslərdəki davranışlarını, öz tərəfdaşlarına münasibətdə necə mövqe sərgilədiklərini çox görmüşük. Azərbaycan üçün önəmli olan məqamlarda dövlətin və millətin yanında deyil, əks qütbdə qaldıqlarının şahidi olmuşuq. Qorxaq olduqları üçün kritik situasiyalarda cəsarət ortaya qoya bilməyiblər.

Buna rəğmən, utanmadan özlərini lider hesab edirlər. Bu aspektdən, təbii ki, cənab Prezidentin səsləndirdiyi fikirlər reallıqları əks etdirir. Heydər Əliyevin ən çətin situasiyalarda sərgilədiyi davranışlar bir nümunə, bir örnək olmalıdır. Özünü siyasi proseslərə hazırlayan şəxs, ilk növbədə, Heydər Əliyevdən öyrənməlidir".

***Vidadi ORDAHALLI***

# Prezidentin yaşı 70-dən yuxarı məmurlara mesajlarındakı əsas elementlər - hörmət, qətiyyətli çağırış, əməyə qiymət...

***Rauf Zeyni:*** *"Vəzifə heç kim üçün əbədi deyil, mütləq mənada cavanlara yol açılmalıdır"*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Azərbaycan Respublikası Baş nazirinin müavini Hacıbala Abutalıbovu vəzifədən azad edilməsi ilə bağlı verdiyi ərizəsi ilə əlaqədar qəbul edib. Prezident İlham Əliyev qəbulda Hacıbala Abutalıbovla səmimi söhbət edib.**

Ölkə başçısı yazılan ərizənin ona çatdığını deyib: "Hacıbala müəllim, siz bu gün mənə Baş nazirin müavini vəzifəsindən azad olunmağınızla bağlı ərizə göndərmisiniz. Mən istərdim ki, sizə gördüyünüz işlərə görə öz təşəkkürümü bildirim. Uzun illərdir ki, siz müxtəlif vəzifələrdə çalışırsınız, həm Baş nazirin müavini vəzifəsində, 17 il Bakı Şəhər İcra Hakimiyyətinin başçısı kimi və son ilyarımda yenə də Baş nazirin müavini işləyirsiniz. Bilirəm ki, siz həmişə ulu öndər Heydər Əliyevə sadiq olmusunuz. Heydər Əliyev üçün ən ağır dövrlərdə siz öz sözünüzü demisiniz. Bəzi gənclər əlbəttə ki, bunu bilmir və bəzi adamlar bunu yaddan çıxarır. Amma mən heç vaxt bunu unutmuram ki, o vaxt süni şəkildə ortalığa atılmış yaş senzi məsələsinə qarşı siz qəti etiraz bildirmisiniz. O vaxt ulu öndər Heydər Əliyevin xalq qarşısında nüfuzu çox yüksək idi və xalq ondan başqa heç kimi rəhbər vəzifəsində görmürdü. Onun gələcək fəaliyyətini əngəlləmək üçün o vaxt partokrat hakimiyyət yaş senzi kimi çox cəfəng bir qaydanı tətbiq etmişdi. Səhv etmirəmsə, 65 yaşdan yuxarı olan şəxs Prezident ola bilməzdi. Ulu öndərin də o vaxt 69 yaşı vardı və yadımdadır, siz parlamentin qarşısında kütləvi etiraz aksiyaları təşkil etmisiniz, öz sözünüzü demisiniz, heç kimdən qorxmamısınız. Çünki o vaxt repressiya təhlükəsi çox böyük idi və Heydər Əliyevin hakimiyyətə gəlməsini əngəlləmək istəyənlər müxtəlif çirkin əməllərə əl atmışlar. Heydər Əliyevin yaxın silahdaşı Əjdər Xanbabayevi vəhşicəsinə qətlə yetirdilər, özü də nə vaxt? Həmin gün ki, Heydər Əliyev Moskvadan Bakıya gəlməli idi. Mən ondan bir gün qabaq Bakıya gəlmişdim ki, onu qarşılayım. Onun gəlişini əngəlləmək, ona hədə-qorxu gəlmək üçün günahsız bir insanı, ziyalını - Əjdər Xanbabayevi həmin o dəstə qətlə yetirdi. Düzdür, sonra onu öldürənlər öz layiqli cəzalarını aldılar və Heydər Əliyevin Azərbaycana qayıtmasını heç kim əngəlləyə bilmədi. Bütün təhlükələrə baxmayaraq, o, Bakıya gəldi, öz sözünü dedi. İndiki bəzi dırnaqarası özünü lider adlandıran qorxaqlardan fərqli olaraq, o, hər bir təhlükəyə, hər bir məhrumiyyətə getməyə hazır idi. Onun böyüklüyü bundadır və siz Hacıbala müəllim, o vaxt öz sədaqətinizi göstərmisiniz, həm ulu öndərə, həm Vətənə, dövlətə, xalqımıza. Çünki Heydər Əliyevin hakimiyyətə gəlməsi bizi çox böyük fəlakətdən qorudu. Təsadüfi deyil ki, ulu öndər sizə böyük vəzifələr təklif etmişdir, Baş nazirin müavini vəzifəsinə təyin etdi, ondan sonra Bakı Şəhər İcra Hakimiyyətinin başçısı, ondan əvvəl isə siz Suraxanı rayonunda icra başçısı işləmisiniz. Yadımdadır, sizin o vaxt fəaliyyətiniz də bəziləri üçün bir növ təəccüblü idi, çünki bildiyimə görə, qapılarınız açıq idi, kim istəyirdi gəlirdi. Vətəndaşların problemləri ilə maraqlanırdınız və bu, bir novatorluq idi. İndi bəziləri bunu yaddan çıxarır, amma mən yaddan çıxarmıram və bu gün sizi dəvət etmişəm ki, bunu sizə deyim və Azərbaycan vətəndaşları da bunu bilsinlər. Ancaq həyat yerində durmur, qarşıya yeni vəzifələr qoyulur, yeni çağırışlar qarşımızda durur. Yaşınız da artıq 75-i keçibdir və əlbəttə ki, daha gənc nəslə yol vermək lazımdır. Ona görə sizin ərizə ilə mənə müraciətinizi yüksək qiymətləndirirəm. Hesab edirəm ki, pensiya yaşına çatmış, hər halda 70 yaşını keçən iqtidarda təmsil olunanlar da yəqin ki, sizin nümunənizi təkrar edəcəklər. Hər halda, mən buna ümid edirəm. Siz Yeni Azərbaycan Partiyasında da fəal iş görürsünüz. Hesab edirəm ki, bundan sonra da partiya tərkibində siz öz fəaliyyətinizi davam etdirməlisiniz. Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram və gördüyünüz işlərə görə təşəkkürümü bildirirəm".



*"Bu məsələdə Prezidentin nümayiş etdirdiyi siyasi etikaya, onun çağırışına səs verilməlidir"*

Göründüyü kimi, ölkə başçısı iqtidarda təmsil olunan, yaşı 70-i keçmiş şəxslərin də bundan nümunə götürməsinin vacibliyini vurğulayıb. Hacıbala Abutalıbovla söhbətdən görünür ki, Prezident mərhum prezident Heydər Əliyevin silahdaşlarına, onun vaxtında vəzifəyə təyin olunan və dövlətçilik üçün xidmətləri olan adamlara xüsusi ehtiramla yanaşır. O da aydın görünür ki, ölkə başçısı bu qəbildən olan şəxslərlə siyasi etika çərçivəsində davranır. Bəs onlar bunun müqabilində nə etməlidirlər? Prezidentin yaşı 70-i keçmiş məmurlarla bağlı etdiyi çağırışa hansı formada reaksiya verməlidirlər?

Milli QHT Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, cənab Prezidentin həmin çağırışı çox yerindədir və buna böyük zərurət var: "Bilirsiniz ki, kadr potensialının yenilənməsi lazımdır. Bunun idarəetmənin effektinin artırılmasında da böyük əhəmiyyəti var. Köhnə kadrların istefaya getməsi heç də o anlama gəlimir ki, onlar hansısa xətaya yol veriblər. Vəzifə heç kim üçün əbədi deyil, mütləq mənada cavanlara yol açılmalıdır. Cənab Prezident çox böyük mədəniyyətin daşıyıcısı olan bir ailədə böyüyüb. Heydər Əliyev və Zərifə xanımdan alınan tərbiyə onun bütün addımlarında, davranışlarında özünü göstərir. O, təkcə kadr məsələsinə deyil, bütün vacib detallara həmin məfkurədən yanaşır. Ölkə başçısı bir daha göstərdi ki, o, Heydər Əliyev siyasi yolunda xidmətləri olan şəxslərə böyük sayğı və ehtramla yanaşır. Bu məsələdə Prezidentin nümayiş etdirdiyi siyasi etikaya, onun çağırışına səs verilməlidir. Təşəbbüs yaşı 70-i keçən məmurlardan gəlməlidir. Prezidentin bu işarəsindən nəticə çıxarılıb, adekvat addımlar atılmalıdır. Bu heç də o anlama gəlmir ki, dövlətçiliyimiz üçün xidmətləri olan şəxslər unudulmalıdır. Onların bilik və bacarığından, məsləhətlərindən istifadə olunmalıdır. Məsələn, mən öz nümunəmi göstərirəm. 20 ildir QHT sektorundayam. 25 ildir dövlət vəzifəsi daşımıram. Vaxtilə Sumqayıtda şəhər sovetinin sədr müavini olmuşam. İmkanımız nəyə çatıbsa, Vətənə fəda etmişik, bundan sonra da edəcəyik. Məgər Vətənə, dövlətə qulluq etmək üçün mütləq vəzifən olmalıdır? Bu baxımdan da hesab edirəm ki, yaşı keçmiş adamlar gənclərə yol açmalıdırlar. Hər halda, Prezident bu zərurəti hiss edir ki, belə müraciət etdi. Əgər dövlət başçısı bunun siyasi etika çərçivəsində həllini istəyirsə, niyə qarşılıq verilməməlidir? Təbii ki, Prezident istədiyi adamı vəzifədən çıxara bilər. Ancaq o çalışır ki, bu bir qədər siyasi etiket səviyyəsində olsun".

**Məhəmmədəli QƏRİBLİ**

# Bağdad Suriyadan çıxarılan ABŞ hərbçilərinin İraqda yerləşdirilməsinə qarşı çıxdı



**İraq rəhbərliyi, Suriyadan çıxarılaraq İraq ərazisinə daxil olan ABŞ əsgərlərinin ölkədə qalmayacağını bəyan edib.**

Baki-xeber.com xəbər verir ki, bu barədə İraq Baş nazirinə bağlı Təhlükəsizlik Mediası Şəbəkəsi tərəfindən yayılan açıqlamada deyilir.

Açıqlamada, Suriyadan çıxarılan ABŞ əsgərlərinin, Şimali İraq ərazisinə girib, sonra ölkədən çıxmaqla bağlı icazə aldıqları bildirilir.

"Suriyadan gələn bu qüvvələrin (ABŞ qoşunları) İraqda qalması üçün heç bir razılıqdan söhbət gedə bilməz" - açıqlamada deyilir.

İraq Silahlı Qüvvələrinin Birləşmiş Komandanlığının yaydığı məlumatda isə bildirilir ki, Suriyadan çıxarılan Birləşmiş Ştatlar hərbçiləri İraq ərazisini tərk etməlidirlər. "Onlar İraqı tərk edə bilmək üçün İraq Kürdüstanı regionuna giriş icazəsi alıblar. ABŞ hərbçilərinə İraqda qalmaları üçün heç bir razılıq verilməyib", - deyə məlumatda bildirilir.

**Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənov dövlət televiziyasının efirində 19 oktyabr mitinqindən danışarkən deyib ki, kimin hakimiyyətlə bağlı problemi varsa, Prezidentin köməkçisi kimi o və digər 6-7 köməkçisi, yəni hər biri, onların müvafiq problemlərini dinləməyə hazırdır.**



# Son aksiyadan ziyan görmüş 200 min dinc sakindən kim üzr istəməli idi - Əli Həsənov, ya radikalların başçıları...

## *Rəfail Becanov: "Belə bir siyasi mədəniyyəti, əslində, təşkilatçılar ortaya qoymalıydı"*

O bildirib ki, 28 May meydanı ətrafında nəqliyyat vasitələrindən - avtobuslardan, metrodan gün ərzində 200 minə yaxın Bakı şəhər sakini istifadə edir: "O cümlədən, həmin meydanın ətrafı kifayət qədər sıx şəkildə sahibkarlıq obyektləri, dükanlar, ticarət mərkəzləri, məktəblər, xəstəxanalar, institutlar olan bir yerdir. Təsəvvür edin ki, Azərbaycan müxalifətinin bu antimilli, antivətəndaş aksiyası, sözün həqiqi mənasında, Bakının 200 mindən artıq insanının ritmik həyatını pozdu. Həmçinin, nəqliyyatın ritmik hərəkətini, şəhərin ictimai-siyasi asayişini pozdu. Polis orqanları asayişi qorumaq üçün məcbur oldu ki, vətəndaşların hərəkətini məhdudlaşdırsın. Ona görə də mən polis orqanlarının və Azərbaycan dövlətinin adından dinc vətəndaşlarımıza, həmin gün o aksiyaya heç bir aidiyyəti olmayan vətəndaşlarımıza yaratdığımız bu diskomforta görə üzr istəyirəm. Əslində, müxalifət üzr istəməlidir. Bu işin məsuliyyətini kimsə daşımalıdır, ya daşımamalıdır?! 200 min adamın ritmik həyatının pozulmasının məsuliyyətini müxalifət, təşkilatçılar, Azərbaycanın mərkəzini qarşıdurmaya, xaosa, anarxiyaya çevirmək istəyən siyasətçilər daşıyır. 25-26 ildir ki, mənim də təmsil olunduğum hakimiyyət Azərbaycan dövlətini idarə edir. Azərbaycanın iqtisadi-siyasi, sosial siyasətini formalaşdırır və həyata keçirir. Azərbaycan vətəndaşları ilə təmasa girir. Onun hakimiyyət mandatına sahib olur. Onların istək və arzularını həyata keçirmək üçün siyasət yürüdür. Azərbaycan vətəndaşları da, bütövlükdə, bu hakimiyyətdən razıdırlar. Bunu keçirilən sorğular göstərir. Yəni bir ölkənin hakimiyyətini, liderini hakimiyyətdən salmağın, devirməyin yolu Azərbaycan vətəndaşlarının iradəsindən, istəyindən keçir. Bu iradəni, istəyi qazana bilməyən istənilən qüvvə iflasa məhkumdur. Necə ki, Azərbaycan müxalifəti 25-26 ildir ki, iflasa uğrayıb, Azərbaycan xalqı tərəfindən boykot olunub. Bunu birmənalı şəkildə bizim vətəndaşlar anlamalıdır".

Cənab Əli Həsənovun yazısından görünür ki, icazəsiz aksiya zamanı dinc vətəndaşların istirahət və digər konstutision haqları pozulub. Ancaq maraqlıdır ki, buna görə təşkilatçılar hələ də xalqdan üzr istəmək istəmirlər. Əli Həsənov isə Azərbaycan dövləti adından belə üzrxahlığı edir. Qanunsuz aksiya təşkilatçılarının nümayiş etdirdiyi bu siyasi davranışa hansı adı vermək olar?

AXCP adına iddialı olan siyasi partiyanın funksioneri Rəfail Becanov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu məsələdə ən böyük məsuliyyət aksiyanı təşkil edənlərin üzərinə düşür: "Çünki bir insanın azadlığı başqa bir şəxsin hüquqları başlayan yerdə bitir. Ona görə də təşkilatçılar bunu mütləq nəzərə almalıydılar. Bilirsiniz ki, qanunvericiliyimizdə qanunsuz aksiyaların keçirilməsi qadağandır. Təşkilatçılar bilirdilər ki, orada qarşıdurma, asayişin pozulması olacaq. Belə də oldu. Siyasətə aidiyyəti olmayan bir çox sadə vətəndaşın hüquqları pozuldu. İstirahət, gediş-gəliş və hətta ticarət etmək kimi hüquqları pozuldu. İnsanlar öz evlərinə rahat gedə bilmədilər. Həmin ərazidə nəqliyyatın vəziyyəti, demək olar ki, iflic edildi. Buna görə hökumət öz üzrxahlığını etdi. Konkret ifadə etsək, hörmətli Əli Həsənov belə bir açıqlama verdi. Bu əsl siyasi əxlaq nümayişidir. Belə bir siyasi mədəniyyəti, əslində, təşkilatçılar ortaya qoymalıydı. Hətta hadisələrdən əvvəl də bunu edə bilərdilər. Deyərdilər ki, belə bir iş görəcəyik, yaratdığımız narahatlığa görə üzr istəyirik. Hansısa tikinti şirkəti bir iş görəndə belə məzmunlu plakat yazıb, xalqdan üzrxahlıq edirsə, bunlar niyə etməməlidirlər? Bu da onu göstərir ki, onlarda siyasi mədəniyyət deyilən keyfiyyət yoxdur. İstənilən siyasi mübarizədə bu əxlaq gözlənilməlidir. Çox təəssüflə qeyd etməliyik ki, onlar bu mədəniyyətsizliyi aksiyadan sonrakı davranışlarında da ortaya qoydular. Aksiyada şəkillər paylaşıb, yalnız söyüş söyə bildiklərini üzə çıxardılar".

*"İstənilən siyasi mübarizədə bu əxlaq gözlənilməlidir"*

***Məhəmmədəli QƏRİBLİ***

**"Burada konkret ad sadalamaq mümkün deyil. Digər tərəfdən də cənab Prezident bilir ki, hansı məmurlar Prezidentin yürütdüyü islahat kursuna manea törətməyə çalışır, gizli yollarla sabotaj nümayiş etdirir. Əlbəttə, bunları cənab Prezident bilir, zamanı çatdıqca da bu insanlar öz cəzasını alacaqlar".**



# Əli Həsənov sabotajçı məmurlar-media sövdələşmələrinin ünvanını bir az da konkretləşdirdi

## *Elşən Manafov: "Görünən odur ki, hansısa məmurlar saytlara və reket mediasına məlumat ötürməklə islahatları əngəlləyə bilməyəcəklər"*

Bunu Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov mətbuata verdiyi müsahibəsində bildirib. Ə.Həsənov onu da qeyd edib ki, Prezidentin irəli sürdüyü islahatlar kursu bir ildən artıqdır, sözün həqiqi mənasında, ölkədə öz nəticələrini göstərməkdədir və islahatlar nəticəsində büdcəyə daxilolmalar artıb: "Əlbəttə, burada maddi marağına toxunulan şirkətlər, şirkət rəhbərləri də var. Bizim məmurların da bir qisminin yaxınları, ətrafında olan insanlar kommersiya ilə məşğuldur, bəzən kommersiya strukturlarında vergi sisteminə müqavimət hərəkətləri də müşahidə olunur. Bu barədə mediada da mütəmadi məlumatlar yayılır. Cənab Prezident bu çağırışları edir ki, şirkət rəhbərləri, məmurlar və onların ətrafındakı insanlar dövlətin islahatlar kursunu sabotaj etməsinlər. Dövlətin siyasi iradəsi ortadadır. Heç kim buna mane ola bilməz. Əgər belələri aşkarlanarsa, onlar cəzalandırılacaqlar. Bəzən mübarizə aparmaq üçün mətbuatdan da istifadə edirlər. Ayrı-ayrı saytlarda, xüsusən də reket saytlarda başqa-başqa insanlar, o cümlədən, islahatları həyata keçirən qurumlar haqqında müəyyən materiallar yayırlar. Belə hallara qarşı Azərbaycan Prezidenti və iqtidarı ciddi iradə meydana qoyub. Bu iradənin də nəticəsi olaraq bu tip neqativ hallar tezliklə aradan qaldırılacaq".

Görünən odur ki, sabotajçı məmurlar və media barədə Prezidentin iqtisadi müşavirədə dediklərini Ə.Həsənov bir qədər də konkretləşdirdi. Bir daha aydın oldu ki, belələrinə qarşı mübarizə aparılacaq və islahatlar kursu davam etdiriləcək. Kimliyindən asılı olmayaraq, buna mane olanlar cəzalandırılacaqlar.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Elşən Manafovun fikrincə, Ə.Həsənovun açıqlamasından belə məlum oldu ki, islahatların aparılması davamlı olacaq və kimlərsə bunu əngəlləyə bilməyəcək: "Prezident İlham Əliyev son müşavirədə hakimiyyət daxilində islahatlara mane olan bəzi məmurların olmasına eyham vurdu. Bu belə qənaətə gəlməyə əsas verir ki, hakim komanda tərkibində mühafizəkar düşüncə tərzinə malik olan insanlar var. O cümlədən, ölkə başçısının islahatlar kursuna birmənalı surətdə dəstək verən və yeni texnologiyalarla işləməyə hazır olan şəxslər var. Yeniliklərə yiyələnmiş kifayət qədər cavan və daha məsuliyyətli kadr var. Təsadüfi deyil ki, Prezident İlham Əliyev Baş nazirin müavini Əli Həsənovu vəzifədən azad edilməsi ilə bağlı verdiyi ərizəsi ilə əlaqədar onu qəbul edərkən bir sıra məqamlara toxundu. Xüsusən ölkə başçısı onu qeyd etdi ki, o bununla bağlı yaxşı nümunə göstərdi: "Gənc kadrlara yer vermək üçün hesab edirəm ki, siz yaxşı nümunə göstərirsiniz. Ümid edirəm ki, iqtidar komandasında təmsil olunan digər yoldaşlara da bu, yaxşı bir örnək olacaqdır". Bu, Prezident tərəfindən verilən kifayət qədər açıq mesaj idi. Bu o deməkdir ki, iş qabiliyyəti yüksək olan komanda təşkil olunacaq.

Bütün bunlar onu göstərir ki, islahatların aparılması artıq günün vacib tələblərindən biridir. Dünya dəyişir və Azərbaycanda da cəmiyyət islahatlara tamarzıdır. Buna hamıdan əvvəl ölkə başçısının görməsi və qiymətləndirməsi təqdirəlayiqdir. Görünən odur ki, hansısa məmurlar saytlara və reket mediasına məlumat ötürməklə islahatları əngəlləyə bilməyəcəklər. İslahatları sabotaj etməyə çalışanlar zamanı gəldikcə cəzalandırılacaqlar. Buna kimsənin şübhəsi olmamalıdır".

*"İslahatları sabotaj etməyə çalışanlar zamanı gəldikcə cəzalandırılacaqlar"*

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# "Qarabağ Azərbaycandır və nida"nın ardınca onlar hərbi büdcəni 20 faiz artırdı" - Ermənistan xofda və şokda...

**Azərbaycanın öz ordusunu davamlı şəkildə gücləndirməsi, bunun üçün böyük vəsaitlər sərf etməsi işğalçı Ermənistanda ciddi narahatlıq predmeti olaraq qalmaqdadır. Xüsusən də ölkəmizin gələn il üçün müdafiə xərclərinin artırılması istiqamətində atdığı növbəti addım düşmən ölkədə indi əsas müzakirə mövzularından birinə çevrilib və belə vəziyyətdə baş nazir Nikol Paşinyana yönəlik ittihamların daha da artması müşahidə olunur.**

Bir daha xatırladaq ki, 2020-ci ilin dövlət büdcəsi xərclərinin 3 milyard 853,6 milyon manatı müdafiə va milli təhlükəsizliyin maliyyələşdirilməsinə yönələcək. Bu da o deməkdir ki, gələn il ordyua ayrılan xərclər 2019-cu ilə nisbətən 666 milyon manat və ya 20,9 faiz çox olacaq. Düşmən ölkədə hesab olunur ki, belə vəziyyətdə bu, Azərbaycanın Dağlıq Qarabağ münaqişəsini hərbi yolla həll etmək niyyətinin təsdiqidir və Ermənistan onun qarşısında tab gətirə bilməyəcək. Məsələyə münasibət bildirən erməni ekspert Avetik Çalabyan rəsmi Bakının addımlarının Ermənistan üçün ciddi çətinliklər yaradacağını vurğulayır: "Roma Papasından daha böyük katolik olmağı arzulayan hökumətimiz hərbi büdcədən vəsaitləri başqa "dinc" məqsədlərə yönləndirərək, haqlı olduqlarını izah etmək üçün səylərini əsirgəmir. Həm Ermənistan hökumətini, həm parlamentin müdafiə və təhlükəsizlik məsələləri üzrə daimi komissiyasını, həm də parlamentin ayrı-ayrı deputatlarını bu xoşbəxt komadan çıxmağa, vəziyyətin məsuliyyətini anlamağa, Ermənistanın 2020-ci il büdcəsinin müdafiə vəsaitlərinə yenidən baxmağa və ətrafımızda gərginləşən real çağırışlara adekvat cavab verməyə çağırıram". O, Azərbaycan və Ermənistanın büdcə layihələrində müdafiə xərclərini müqayisə edib: "Olduqca vacib məsələ ilə başlamaq istəyirəm. Cəmi 10 ay öncə bu barədə yazdım ki, Ermənistan hökuməti hərbi xərclərin artımını dondurur, bu şəraitdə ümumi dövlət büdcəsinin 2020-ci ildə 14% artımı proqnozlaşdırılır və Azərbaycanın gərginləşən döyüş ritorikası şəraitində müdafiə xərclərinin ən azı mütənasib artımı zərurətdir.

Oktyabrın 18-də Azərbaycanın 2020-ci ildə dövlət büdcəsi layihəsi nəşr olunub. Ümumi dövlət büdcəsi xərclərinin 1,7% artmasına baxmayaraq, müdafiə büdcəsi 20,9% artaraq 2,267 milyard ABŞ dollarına çatır. Bu məbləğdən 945 milyon dolları silahların alınması və hərbi sənaye sərmayələri üçün planlaşdırılır. Bu şəraitdə Ermənistan hökumətinin təqdim etdiyi 2020-ci il dövlət büdcəsi layihəsi ən azından çaşqınlıq yaradır. Bunun nə olduğunu, Azərbaycanın daha bir milyard dolları silah almaq üçün xərcləməklə nə edəcəyini anlamaq üçün alim olmağa gərək yoxdur".

Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Artsrun Ovhannisyan məsələyə aydınlıq gətirərkən ölkəsinin Azərbaycanla ayaqlaşmasının mümkünsüzlüyünü etiraf edib: "Hərbçiyə ona verilən pulun kifayət edib-etməməsilə bağlı sual versəniz, o deyəcək ki, on dəfə artığını da verin, azdır. Yəni hərbçi həmişə deyir, çox, çox, çox. Burada sual fərqlidir. Bu sualda hökumət və qeyd edilən qurumlar hər zaman kompromisə gəlib, çünki ölkənin mütənasib inkişafı digər istiqamətlərin də inkişafını tələb edir. Rəqibimizlə müqayisəyə gəldikdə isə, hər birimiz bilirik ki, Azərbaycanın imkanları daha böyükdür. Digər bir məsələ budur ki, biz 2020-ci il dövlət büdcəsini sona qədər təqdim edə bilmərik. Müdafiə büdcəsi heç vaxt aydın və anlaşılan olmayıb, hər zaman da cari il ərzində düzəlişlər olub". Amma erməni ekspert Andranik Tevanyan qeyd edir ki, Azərbaycandan fərqli olaraq, Ermənistan hakimiyyətinin sözü ilə əməli üst-üstə düşmür: "Qarabağ Azərbaycandır və nida" bəyanatından sonra Azərbaycanın hərbi büdcəsi 2020-ci il üçün 20% artıb. Azərbaycanın hərbi büdcəsi bizimkini bir neçə dəfə üstələyir. Bizim qonşumuz açıq şəkildə müharibəyə hazırlaşır, buna Azərbaycanda baş verən kadr dəyişiklikləri də şahidlik edir. Xüsusilə baş nazir dəyişikliyi... Ermənistanın sözü ilə əməli üst-üstə düşmür. Bizim fəaliyyətlərimizlə Azərbaycanın fəaliyyətlərində asimmetriya var. Nəticə çıxarmaq çətin deyil".

Yeri gəlmişkən qeyd edək ki, müdafiə xərcləri ilə yanaşı, son günlər Ermənistan mediasında ən çox müzakirə olunan məsələlərdən biri Prezident İlham Əliyevin sərəncamı ilə Əli Əsədovun baş nazir vəzifəsinə təyin edilməsi ilə bağlıdır. Belə ki, bir sıra erməni ekspertlər ölkəmizdə aparılan kadr islahatlarını xüsusi vurğulayır, bunu bunu hətta Azərbaycanın müharibəyə ciddi hazırlıq görməsi kimi qiymətləndirirlər. Azərbaycan Xarici İşlər Nazirlyinin sabiq rəhbəri, politoloq Tofiq Zülfüqarov bunu belə şərh edir: "Ölkəmizdə islahatlar doğrudan da gedir və bu, iqtisadiyyatın dirçəlməsinə gətirib çıxarır. Bununla paralel olaraq, kadrların yenilənməsi fərqli bir haldır. Azərbaycanda baş verən proseslərdən dolayı ermənilərin narahatlığının əsassız olmadığı da qeyd olunmalıdır. Ermənilər həmişə Azərbaycanda gedən prosesləri izləyiblər. Onlar başa düşürlər ki, çox qorxulu bir vəziyyət yaranıb. Bu yaxınlarda Rusiyanın xarici işlər naziri Sergey Lavrovun səsləndiriyi bir fikir diqqəti cəlb edir. Lavrov tərəflər arasında danışıqların olmadığını dedi. Azərbaycan tərəfi də bəyan etdi ki, danışıqlar yoxdur, sadəcə, görüşlər baş verir. Danışıqlar olmayan yerdə, təbii ki, məsələnin həlli ilə bağlı digər üsullar ortaya çıxır. Başa düşürük ki, hərbi əməliyyatların başlamasının mümkünlüyü artır. Hərbi əməliyyatların təşəbbüskarının kim olacağı fərq etmir. Amma məntiqə görə, Azərbaycanın tam hüququ var ki, öz ərazilərini işğaldan azad etsin. Çünki beynəlxalq vasitəçilik heç bir nəticə vermir. Bu baxımdan ermənilər Azərbaycanda baş verən islahatları özlərinə təhlükə kimi görməkdə haqlıdırlar. Çünki ermənilər başa düşürlər ki, onların potensialı və əsas gücü Rusiya tərəfindən onlara verilən hərbi təhlükəsizlik qarantiyasıdır. Ermənistan tərəfinin narahat olmasının əsas səbəbi bu qarantiyanın onların üzərindən götürülməsi və bu prosesin davam etməsi ilə bağlıdır. Ermənilər, demək olar ki, Azərbaycan tərəfinin bütün addımlarında müharibənin bərpasını görürlər. Bu baxımdan onların həqiqətdən uzaq olmadığını demək olar".

Beləliklə, kadr islahatları, Azərbaycanın artan hərbi gücü, artırılan müdafiə xərcləri düşməni getdikcə daha çox əndişələndirir. Hazırda Ermənistanın elə bir böyük iqtisadi potensialı və gəlir mənbələri yoxdur ki, həm sosial, həm də hərbi sahədə büdcə artımına qərar verə bilsin. İndiyə qədər bu ölkədə hərbi xərclər sosial və digər xərclərin kəsilməsi hesabına artırılır. Düşmən ölkə üçün bunun başqa yolu yoxdur. Amma indiki şəraitdə artan sosial narazılıq fonunda Paşinyan iqtidarı sosialyönümlü xərcləri azaltmağa cürət etmir. Bu səbəbdən də hərbi xərclərin artımı mükünsüz hala gəlir. Belə vəziyyətdə də Ermənistanın Azərbaycanın həm büdcəsini, həm də hərbi xərclərini artırmasını narahatlıqla izləməkdən başqa yolu qalmır.

Digər tərəfdən, qarşıdakı dövrdə Ermənistan hərbi xərclərini nə qədər artırsa da, bu, Azərbaycanın hərbiyə xərclədiyi vəsaitdən qat-qat az məbləğ olacaq. Yəni Azərbaycanın bu sahədə üstünlüyü davam edəcək. Erməni iqtisadçı Aram Kayfacyan ölkəsinin 2020-ci il dövlət büdcəsi xərclərində müdafiə xərclərinin cəmi 0,8% artması fonunda məsələnin bu tərəfinə toxunarkən qeyd edir: "Bəlkə də bizim hökumətdə düşünürlər ki, büdcə xərclərini sosial, iqtisadi sahələrə yönəltmək daha məqsədəuyğundur. Hər birimiz bilirik ki, belə bir mühitdə, şəraitdə xərcləri hərbi sahəyə yönəltmək daha çox prioritetdir. Amma buna imkanımız yoxdur. Azərbaycanla ayaqlaşmaq çətindir".

Azərbaycanın müdafiə xərclərini 20% artırması məsələsinə toxunan Kayfacyan bildirib ki, bu kimi dəyişikliklər Azərbaycanın müharibəyə hazırlaşdığını göstərir: "Bu cür impulslar almaq şəraitində, ən azından, eyni nisbəti qorumaq belə Ermənistan üçün müşkül məsələdir. Müdafiə xərclərinə neytral, qənaətedici yanaşma Azərbaycana daha güclü siyasət yürütməyə imkan verəcək. Onların 20 faizlik artımı böyük fərqdir". Ermənistan parlamentinin sabiq vitsespikeri Eduard Şarmazanovun da məsələyə reaksiyası olduqca maraqlıdır. Şarmazanov Paşinyanın "Ermənistanın hərbi büdcəsi kəskin artacaq" sözlərini xatırladıb: "Bu gün Azərbaycan hərbi büdcəsini 20 faiz artırır, biz isə, demək olar ki, artırmırıq. Burada bizim söz və iş arasında uyğunsuzluğumuz var. Mən sərt açıqlamalar vermək, Baş nazirin yalan danışdığını demək istəmirəm, lakin bizim bir adamla işimiz var. Bu adam ən vacib məsələdə bir şeyi bildirir, lakin başqa bir şey edir". Şarmazanovun sözlərinə görə, Azərbaycanın hərbi büdcəsini 20 faiz artırması vəziyyətində şərab şüşəsi ilə partilər təşkil etmək, realiti şoularla insanları əyləndirmək dövlət rəhbərinin vəzifələrinə daxil edilə bilməz: "Ölkədə ailə şəkilləri paylaşmaqdan daha vacib məsələlər var. Mən bu şəkillərin paylaşılmasına qarşı deyiləm, lakin Azərbaycan hərbi büdcəsini artırır, sən isə vədini yerinə yetirmirsən, bu narahatedicidir".

Şarmazanov ötən 1,5 il ərzində Türkiyə və Azərbaycan tərəfindən təşkil olunmuş bir sıra hərbi təlimlər, Ermənistana qarşı konkret hərbi fəaliyyət haqqında xatırlatma da edib: "Qarabağ məsələsi ilə bağlı bir-birinə zidd bəyanatlar verilir. Bu bəyanatlar danışıqlarda Ermənistanın mövqelərini zəiflədir. Azərbaycan Türkiyə ilə hərbi paradlar təşkil edir, bu il ərzində sayca 3-cü təlim keçirir, Ermənistan hakimiyyəti isə həmin anda generalları gözdən salmaq, həbs etmək və ya ittiham etməklə məşğuldur. Cənab baş nazir hərbi xərcləri artıracağını və hərbi potensialı gücləndirəcəyini vəd edirdi, lakin əlbəttə ki, 0,8 faiz yeni hökumətin vəd etdiyi rəqəm deyil".

Belə vəziyyətdə Şarmazanov və digər erməni ekspertlər Azərbaycanın Ermənistan qarşısında daha güclü mövqe sahibinə çevrildiyini də etiraf edirlər.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# ABŞ səfirliyi Azərbaycanın daxili işinə müdaxilədə bu dəfə əvvəlki hədləri gözləmədi...

**ABŞ-ın Azərbaycandakı səfirliyi 19 oktyabrda yer alan etiraz aksiyası ilə bağlı bəyanatla çıxış edib. Bəyanatda deyilir: "Birləşmiş Ştatların Azərbaycandakı səfirliyi Avropa Birliyinin bəyanatına dəstək verərək oktyabrın 19-da keçirilən dinc etiraz aksiyasının dağıdılması, həmçinin, aksiya iştirakçılarının və müşahidə edən insanların həbs edilməsi üçün polis tərəfindən göstərilən zorakılığı qəti şəkildə pisləyir.**



## *Qabil Hüseynli: "ABŞ səfirliyinin hərəkətləri diplomatik missiyanın səlahiyyətlər həddinə uyğun deyil"*

Biz hökuməti polis zorakılığına dair yayılan məlumatları araşdırmağa, aidiyyəti olan şəxsləri məsuliyyətə cəlb etməyə və həbsdə olan şəxslərin tezliklə azadlığa buraxılmasını təmin etməyə çağırırıq".

Səfirliyin bəyanatında sonra qeyd edilir ki, bu cür hallar Azərbaycanı zəiflədir: "Etiraz aksiyaları zamanı internetdən istifadə imkanlarını məhdudlaşdırmaq Azərbaycanın maraqlarını qorumur, əksinə, Azərbaycanın imkanlarını məhdudlaşdırır. Toplaşmaq və söz azadlıqları Azərbaycanın Konstitusiyası tərəfindən təmin olunan fundamental azadlıqlardır və biz hökuməti sözügedən azadlıqları təmin etməyə və qorumağa çağırırıq".

Göründüyü kimi, ABŞ səfirliyi sanki Azərbaycanda fəaliyyət göstərən hansısa radikal müxalif partiyanın mövqeyinə bənzər bir yanaşma ortaya qoyur. Əvvəl səfirlik bu tip məsələlərə münasibət bildirərkən məsuliyyəti bərabər şəkildə ifadə etməyə çalışırdısa, hazırda bütün məsuliyyəti hakimiyyətin üzərinə qoymaqla tam qərəzli mövqe nümayiş etdirmiş olub. ABŞ səfirliyinin bu mövqeyini ölkənin daxili işlərinə qarışmaq kimi dəyərləndirə bilərik.

Politoloq Qabil Hüseynli qəzetimizə açıqlamasında bildirdi ki, ABŞ səfirliyinin bu məzmunda bəyanat verməsi təəccüblüdür: "Bununla yanaşı, diplomatik normalara ziddir. Demək olar ki, sözbəsöz Avropa Birliyinin bəyanatını təkrarlayıb. Hətta bəyanatda xüsusi olaraq vurğulanır ki, AI-nin mövqeyini tam bölüşürlər. Ola bilər ki, aksiyada polisin hansısa sərt davranışı olub. Amma bunu da nəzərə almalıyıq ki, söhbət icazəsiz aksiyadan gedir. Bu tip aksiyalar elə ABŞ-ın özündə də sərt şəkildə dağıdırlar. Mən hər zaman icazəsiz mitinqlərin əleyhinə olmuşam. Çünki bu cür aksiyalar gələcək mitinqlərin effektini aşağı salır. Yəni üzvlər qorxub çəkinməyə başlayır ki, bunun ən böyük ziyanı elə müxalifətin özünədir. Gördünüz ki, aksiyanın lideri necə hörmətsiz vəziyyətə düşdü. Gərək belə şeylər olmasın. Çünki biz elə həssas coğrafiyada yaşayırıq ki, burada daxildə olan hər hansı bir qarışıqlıq erməninin dəyirmanına su tökür. Eyni zamanda, onları danışıqlar masası ətrafında daha inamlı edir. Bu nöqteyi-nəzərdən ABŞ səfirliyinin hərəkətləri diplomatik missiyanın səlahiyyətlər həddinə uyğun deyil. Həm də ölkənin daxili işlərinə kobud müdaxilə kimi səciyyələndirilə bilər".

*"Ölkənin daxili işlərinə kobud müdaxilə kimi səciyyələndirilə bilər"*

***Məhəmmədəli QƏRİBLİ***

# Samir Adıgözəlli Kocaelidə Xocalı soyqırımı parkının salınmasına razılıq aldı

**İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSBAM) Azərbaycan Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının dəstəyilə Türkiyənin Kocaeli şəhərində həyata keçirdiyi layihə başa çatıb.**

Oktyabr ayının 15-19 tarixlərində İSBAM nümayəndə heyəti Türkiyədə məhsuldar görüşlər və bir neçə tədbir keçirməyə müvəffəq olub. Səfər proqramında İSBAM nümayəndə heyətini 4 nəfər təmsil edib. Tərkibdə qurum rəhbəri Samir Adıgözəlli, İSBAM sədrinin müşaviri Yasəmən Möhübbətqızı, bu yazının müəllifi və digər jurnalist Sima Babayeva olub. Səfərin ilik günündə nümayəndə heyəti İzmit şəhərində Türkiyə Azərbaycanlılar Dərnəkləri Federasionunda olub. Dərnəyin rəhbəri Bilal Dündar bölgədə Azərbaycan-Türkiyə əlaqələrinin möhkəmlənməsi istiqamətində görülən işlərlə bağlı qonaqlara geniş məlumat verib. Qurumun ofisində bölgədə təhsil alan Azərbaycan əsilli fəal tələbələrlə də fikir mübadiləsi aparılıb. Elə həmin gün İSBAM nümayəndə heyətini Kocaeli əmniyyət müdiri Veysəl Tipioğlu tərəfinfən qəbul edilib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparılıb. Görüşün sonunda İSBAM sədri Samir Adıgözəlli və Veysəl Tipioğlu birbirinə xatirə hədiyyələri təqdim ediblər.

Səfər proqramının növbəti günündə İSBAM QHT-lərə Dövlət Dəstəyi Şurasının dəstəyilə hazırlanan "Nəsimi-650" layihəsinin təqdimatını keçirib. İzmit Sivil Toplum Mərkəzində Türkiyə Azərbaycan Dərnəkləri Fedarasionunu və Kocaeli Heydər Əliyev Kültür Evi ilə birgə keçirilən tədbirdə dahi Azərbaycan şairi anılıb, onu keçdiyi həyat yolu yaradıcılığından ətraflı bəhs olunub. Tədbiri giriş sözü ilə açan İSBAM rəhbəri Samir Adıgözəlli keçirilən layihənin mahiyyəti barədə ətraflı məlumat verib. Sonra İSBAM-ın Nəsimi haqda hazırladığı qisamətrajlı film nümayiş olunub. Mən dahi şairin həyat və yaradıcılığı barədə ətraflı məruzə ilə çıxış etdim. Tədbirdə iştirak edən Türkiyənin müxtəlif şəhərlərində təhsil alan azərbaycanlı tələbələr: Akif Kətənov, Şəfa Hacıyeva (Çakır), Jalə Əlizadə və Türkiyədə yaşayan, ixtisasca ədəbiyyat müəllimi olan soydaşımız Aynur Məmmədova Nəsimin yaradıcılığından şeirlər səsləndiriblər. Tədbirin sonunda İSBAM adından iştirakçılara Nəsiminin və Azərbaycanın simvollarını tərənnüm edən hədiyyələr verilib. Elə həmin tədbirdə TADEF rəhbəri Bilal Dündar Samir Adıgözəlli və mənə iki ölkə arasındakı münasibətlərin inkişafı istiqamətində göstərilən fəaliyyətə görə qurumun adından xüsusi mükafat təqdim edib.

Səfər proqramının 3-cü günü Azərbaycanda Müstəqillik Aktının imzalandığı günə - 18 oktyabra təsadüf edib. Həmin gün də İSBAM nümayəndə heyəti məhsuldar görüşlər keçirib. Kocaeli Böyükşəhər Bələdiyyəsində nümayəndə heyətini başqan vəkili Yaşar Çakmaq qəbul edib. Görüşdə gələcəkdə Kocaelidə Xocalı soyqırımını əks etdirən bir parkın salınması ilə bağlı ilkin razılıq əldə olunub. Sonra Kocaeli Universitetində həmin təhsil ocağının rəhbərliyi ilə görüş olub. Görüşdə universitetdə təhsil alan tələbələrin ümumi vəziyyəti ilə maraqlanılıb, gələcək əməkdaşlıqla bağlı fikir mübadiləsi edilib. Ardınca İSBAM nümayəndələri Kocaeli valisi Hüseyn Aksoy tərəfindən qəbul olunub. Valiyə İSBAM-ın fəaliyyəti ilə bağlı ətraflı məlumat verilib. Tərəflər iki ölkənin birliyinin zəruri olduğuna dair ortaq fikirlər səsləndiriblər. Nümayəndə heyəti İzmit Bələdiyyəsi tərəfindən ərsəyə gətirilən Xocalı abidəsini ziyarət edib, şəhidlərin ruhunu xüsusi ehtiramla anıb. Günün sonunda Kocaeli Heydər Əliyev Kültür Evində müstəqilliyimizin 28-ci ildönümü ilə bağlı Türkiyədə təhsil alan tələbələrin iştirakı ilə bayram tədbiri keçirilib. İSBAM rəhbərliyi tərəfindən azərbaycanlı tələbələrə xatirə hədiyyələri təqdim olunub. Səfərin son günündə İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzi (İSBAM) ilə Türkiyə Azərbaycan Dərnəkləri Fedarasionu (TADEF) arasında əməkdaşlıq protokolu imzalanıb. Hər iki qurumun rəhbəri - Samir Adıgözəlli və Bilal Dündar tərəfindən imzalanan protokolda qeyd olunub ki, bundan sonra sözügedən qurumlar bir-birilə sıx əməkdaşlıq şəraitində çalışacaq və hər iki ölkədə keçiriləcək tədbirlərdə bir-birinə qarşılıqlı dəstək verəcəklər.







Elə həmin gün Samir Adıgözəlli Kocaeli televiziyasının canlı yayımlanan proqramlarından birinin qonağı olub. Bununla da İSBAM-ın Türkiyə səfəri yekunlaşıb.

***Məhəmmədəli QƏRİBLİ***

**Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun APA-ya müsahibəsi.**

# Əli Həsənov: "Azərbaycan hakimiyyəti bütün situasiyaya nəzarət etmək gücündə, imkanında və iradəsindədir"



**- Milli Şuranın 19 oktyabr aksiyası zamanı və aksiyadan sonra baş verənləri necə qiymətləndirirsiniz?**

- Aksiyanın təşkilatçıları çox qeyri-konstruktiv, qanunların və hüquq-mühafizə orqanlarının tələblərini qulaqardına vuraraq, təkidlə şəhərin insanların sıx olduğu meydanında razılaşdırılmamış aksiya keçirməyə cəhd etdilər. Bir sözlə, qanun keşikçilərinə meydan oxumağa qalxdılar. Bakı Şəhər İcra Hakimiyyəti onların mitinq keçirmək istəyini nəzərə alaraq, müvafiq yer ayırmışdı. Əvvəlki dövrlərdə də həmin yerdə Azərbaycanın bəzi siyasi partiyaları aksiya keçirmişdilər. Bu meydanda mitinq keçirmək, çıxış etmək üçün hər cür şərait var. Amma təəssüflər olsun ki, özlərini Milli Şura adlandıran qurum və Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP), bu qurumların rəhbərləri qeyri-konstruktiv yol seçərək, hakimiyyətlə bilərəkdən qarşıdurmaya getdilər. Həmin gün Bakı şəhərində, xüsusən də "28 May" metrostansiyası ətrafında 200 minə qədər insanın ritmik həyatı pozuldu. Nəqliyyatdan, o cümlədən metrodan istifadə etmək imkanları məhdudlaşdırıldı, meydanın ətrafındakı bütün ticarət obyektlərinin, kommersiya müəssisələrinin, institutların, məktəblərin ahəngdar fəaliyyəti pozuldu. Həm əhaliyə hərəkət üçün kifayət qədər problemlər yaratdılar, həm də bütövlükdə Azərbaycan cəmiyyətində qarşıdurma ovqatı yaratmaq üçün hüquq-mühafizə orqanları ilə bilərəkdən qarşıdurmaya getdilər. Hər bir sivil dövlət öz inkişafını, vətəndaşlarının təhlükəsizliyini, dövlətin və şəhərlərin asayişini hər şeydən üstün tutur. Lazım gəldikdə isə, qanun keşikçiləri istənilən metodlardan istifadə edərək, asayişi qoruyurlar, bərpa edirlər, yaxud da asayişi pozmaq istəyənlərə qarşı hüquqi və fiziki tədbirlər görürlər. Bu bütün dünya ölkələrində belədir. Müvafiq olaraq Azərbaycanda da eyni proses həyata keçirildi.

**- Beynəlxalq təşkilatların bəziləri artıq bu aksiya cəhdinə reaksiya verib. Onların reaksiyasını necə qarşıladınız?**

- Biz dövlətimizi beynəlxalq təşkilatlar üçün deyil, Azərbaycan vətəndaşları üçün qurmuşuq. Azərbaycan hakimiyyətinin əsas vəzifəsi ona səs verən, hakimiyyəti formalaşdıran, hakimiyyətin rəhbərini, parlamentini seçən və öz iradəsini ortaya qoyaraq onlardan özünün təhlükəsizliyi, firavan həyatı və digər məsələlərdə sabitliyi tələb edən Azərbaycan xalqı qarşısında hesabat verməkdir, onun maraqlarını ifadə etməkdir. Beynəlxalq təşkilatlarla əməkdaşlıq, xarici tərəfdaşlarımızla, o cümlədən region dövlətləri ilə əlaqələr- bunların hamısı Azərbaycan dövlətinin və xalqının maraqlarını ifadə etmək anlamında bizim üçün əhəmiyyətlidir. Ona görə hansısa beynəlxalq təşkilatın bu məsələlərə bildirdiyi münasibət Azərbaycan hakimiyyəti tərəfindən nəzərə alınır, onların çağırışları, tövsiyələri öyrənilir, müvafiq olaraq dəyərləndirilir, ən məqbulları qəbul olunaraq bizim fəaliyyətimizdə nəzərə alınır. Amma biz bütün ölkələrdə olandan artığını etməmişik. Azərbaycan polisi həmin o Avropanın, dünyanın mərkəzləri olan Paris, Amsterdam, Madrid və Barselonadakı qeyri-qanuni aksiyalarda tətbiq edilən tədbirlərdən artıq hərəkət etməyib. Azərbaycan polisinin hərəkəti küçə və meydanlara çıxıb aranı qatmaq istəyən, Azərbaycan vətəndaşlarının təhlükəsizliyinə zəmin yaradan, onların ritmik həyatını, nəqliyyatın hərəkətini, şəhərin asayişini pozan insanların hərəkətlərinə tam adekvat idi. Polisin gördüyü tədbirlər yalnız bunların qarşısını almağa yönəlmişdi. Polis onları təqib etmirdi ki... Polis razılaşdırılmamış ərazidə mitinq keçirilməsi cəhdinin qarşısını alırdı, həmin meydana insanları buraxmırdı, ora girməyə təkidlə cəhd edən, polislə qarşıdurma yaratmaq istəyən insanları asayişə dəvət edirdi, tabe olmayanları isə müvafiq olaraq nəqliyyat vasitələri ilə bölmələrə apararaq, lazımi hüquqi tədbirlər həyata keçirirdi. Yəni burada qeyri-adekvat heç nə yoxdur.

**- Ən çox müzakirə olunan məsələlərdən biri də polisin aksiya zamanı davranışı ilə bağlıdır. Sosial şəbəkələrdə polis əməkdaşlarının aksiya iştirakçılarına, aksiya iştirakçısı olmayan şəxslərə qarşı davranışı ilə bağlı birmənalı fikir yoxdur. Bununla bağlı fikrinizi bilmək istərdik...**

- Məncə, polisin davranışı tam adekvat, kifayət qədər qətiyyətli idi, qanunlar çərçivəsində tənzimlənirdi və təmin olunurdu. Ona görə də polisi burada günahlandırmaq doğru deyil. Əlbəttə, polis orqanlarının əməkdaşlarının da hansınınsa hərəkətində kiminsə xoşuna gəlməyən hallar ola bilər. Amma polislə toqquşmaq, qarşıdurmaya getmək istəmirsənsə, o zaman polisin qanuni tələblərinə əməl etmək lazımdır. Polisin qanuni tələblərinə əməl etməyən insanlara qarşı, xüsusən də asayişin təmin olunması mənasında, istənilən hüquqi çərçivədə addımlar gözləmək olar. Polisin həyata keçirdiyi tədbirlər oradakı insanların nümayiş etdirdiyi hərəkətə adekvat olur. Bilirsiniz, sosial şəbəkələrdə fərqli insanlar münasibət bildirirlər. Onların sırasında, əlbəttə, sağlam, adekvat, ölkənin vətəndaşlarının rəyini ifadə edən, ziyalı, təhsilli insanlar var. O cümlədən aksiyanı həyata keçirən insanların ətrafında cəmlənən, onlar üçün fon yaradanlar da var. Dünyada nə qədər insan varsa, bir o qədər də fikir, mülahizə var. Amma nümayiş olunan kadrlar da onu göstərir ki, Azərbaycan polisi kifayət qədər korrekt, adekvat davranıb və qanunların tələb etdiyi formada asayişin pozulmasının qarşısını alıb. Mən düşünürəm ki, burada iki mənalı şərhə ehtiyac yoxdur. Azərbaycan polisi lazım olanı edib.

**- Əli Kərimli sərbəst buraxıldıqdan sonra müəyyən işgəncələrə məruz qalması ilə bağlı açıqlama verdi. Bundan əlavə, aksiyada saxlanılan Tofiq Yaqublu, Rüfət Səfərov və digərlərinin də təzyiqə məruz qalması ilə bağlı iddialar var. Bu iddialara münasibətiniz necədir? Bununla bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırmalar aparılırmı?**

- Hesab edirəm ki, hüquq-mühafizə orqanları onların bu bəyanatlarına reaksiya verəcək, araşdırma aparır və aparacaq, müvafiq məlumatlar yayacaq. Mən şahidi olmamışam ki, onlar aparıldığı, saxlanıldığı yerdə hansısa təqibə və təzyiqə məruz qalıblar. Onların bu hərəkətlərinin qarşısını almaq üçün polisin gördüyü tədbirlər hamının gözünün qarşısında olub. Əvvəlcə onları qayda-qanuna dəvət ediblər, sözsüz ki, tabe olmayanda, israrlı şəkildə meydana daxil olmaq istiqamətində hərəkətlər nümayiş etdirəndə polis onları izolyasiya etməli, müvafiq bölmələrə apararaq hərəkətlərinə hüquqi qiymət verməlidir. Əminəm ki, onlar təcrid edilərkən polisin hərəkətində qeyri-adekvat və ya qeyri-qanuni xüsusi bir hal baş verməyib.

**- Müxalifətin bundan sonra Bakının mərkəzində mitinq keçirmək tələblərinə münasibət necə olacaq? Bu məsələ ətrafında müzakirələr olubmu?**

- Biz hakimiyyət olaraq heç bir müxalifət partiyasına, hərəkata, təşkilata, quruma qanunları pozaraq fəaliyyət göstərməyə, hansısa razılaşdırılmamış aksiyalar keçirməyə imkan verməyəcəyik. Onların qanunlar çərçivəsində mövcud olan haqlarını da pozmayacağıq. Yəni biz hakimiyyət olaraq bütün müraciətlərə adekvat münasibət bəsləyəcəyik, qanuni tələblər yerinə yetiriləcək, insanların mitinq, yürüş keçirmək , öz tərəfdarları ilə bir araya gəlib fikir mübadiləsi aparması üçün hakimiyyət onlara müvafiq yerlərdə şərait yaradacaq. Amma onların hakimiyyət, qanun üzərində öz ambisiyalarını reallaşdırmaq cəhdlərinin qarşısı qətiyyətlə alınıb, bundan sonra da alınacaq. Azərbaycan hakimiyyəti bütün situasiyaya nəzarət etmək gücündə, imkanında və iradəsindədir. Bu hakimiyyəti kimsə öz iradəsindən daşındırmağa, çəkindirməyə qalxmasın. Çünki buna nail olmaq qeyri-mümkündür.

**- 19 oktyabr aksiyasından sonra sosial şəbəkələr üzərindən iğtişaşlara, hakimiyyət nümayəndələrinə qarşı zor tətbiq edilməsinə çağırışlar olunub. Hüquq-mühafizə orqanları bu çağırışları araşdırırmı, bu çağırışları edənlərə qarşı hansısa tədbirlər görülürmü?**

- Bu birinci hal deyil. Uzun müddətdir ki, radikal müxalifətin bir qrup antimilli ünsürləri xarici ölkələrdə özlərinə isti yuva taparaq, xarici xidmət orqanlarının bəlli təhriki ilə anti-Azərbaycan fəaliyyəti həyata keçirirlər, terrora, dövlət rəsmilərinə qarşı terror cəhdlərinin həyata keçirilməsinə, qanuni hakimiyyəti devirməyə çağırışlar edirlər. Bunların hamısı, əlbəttə, Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən qeydə alınır. Onlar Azərbaycan hüquq məkanına daxil olduqca, eyni zamanda, Azərbaycan hüquq-mühafizə orqanları onları ölkəmizə gətirib hərəkətlərinə hüquqi qiymət vermək imkanına malik olduqca, bu insanların əməlləri qanuna müvafiq şəkildə tövsif olunacaq, onlara qarşı tədbirlər görüləcək. Azərbaycan dövləti, hüquq-mühafizə orqanları belə çağırışları diqqətdən kənarda qoya bilməz. Zaman-zaman bu əməllərindən əl çəkən insanlara adekvat münasibət olub, əl çəkməyənlər isə qanun qarşısında cavab veriblər. Əminəm ki, bundan sonra da onlar qanundan qaça bilməyəcəklər.

**- Baş verən son hadisələr iqtidar-müxalifət dialoqunun aktuallığını yenidən gündəmə gətirib. Hökumət tərəfindən belə bir dialoq təşəbbüsü gözlənilirmi?**

- Biz həmişə dialoqa açıq olmuşuq. Ümummilli lider Heydər Əliyevin zamanında dəfələrlə fərqli düşərgələri təmsil edən müxalifət partiyalarını - sağçılar, solçular, radikallar, qeyri-radikalları bir araya toplamışıq. Onlarla seçki, daxili siyasət, islahat, Azərbaycanın ağrılı problemi olan Dağlıq Qarabağ məsələlərini müzakirə etmişik. Ayrı-ayrı zamanlarda onların rasional təklifləri bizim tərəfimizdən ümumiləşdirilərək, tətbiq və istifadə olunub. Amma son zamanlar bir qrup müxalifət, onların sırasında 19 oktyabr aksiyasını həyata keçirmək istəyən təşkilatlar həmişə dağıdıcı, radikal mövqe nümayiş etdiriblər. Belə qüvvələrlə, partiyalarla bizim dəfələrlə əməkdaşlıq, dialoq, dəyirmi masalar keçirib nəyisə müzakirə etmək cəhdlərimiz həmişə mənfi nəticələnib. Onlar bu dialoqu tərk ediblər, qeyri-konstruktiv münasibət sərgiləyərək özlərinin radikal xəttini, siyasətini davam etdiriblər. Belə insanlarla biz dialoqun hansısa formada bərpasını çətin görürük. Amma Azərbaycan hakimiyyəti digər siyasi, ictimai təşkilatlarla dialoqa həmişə açıqdır. Biz həmin o radikal qüvvələrin ətrafında cəmləşmiş Azərbaycan vətəndaşlarına da çağırış edirik ki, əgər sizin bu hakimiyyətlə, iqtidarla probleminiz varsa, gəlin bu problemləri müzakirə edək, problemlərin kökünü araşdıraq. Biz hakimiyyət olaraq hər bir Azərbaycan vətəndaşını dinləməyə borcluyuq və hazırıq. Ona görə də gözləyirik ki, sağlam Azərbaycan müxalifətinin özü də bu dağıdıcı qüvvələrə münasibət bildirsin, onların pozucu fəaliyyətini ifşa etsin. Gözləntimiz odur ki, yeni nəsil, xüsusilə də yaxşı təhsilli gənclər belə müxalifətə indiyə qədər sərgilədiyi kimi, bundan sonra da adekvat münasibət sərgiləyəcək. Bu insanların partiya rəhbərliyindən uzaqlaşdırılması, yeni, daha konstruktiv, uzaqgörən, dövlətin, millətin qayğısını çəkməyə hazır olan insanların partiya rəhbərliyinə gətirilməsinə çalışacaqlar.

**- Prezident İlham Əliyev son müşavirəsində məmurlar arasında çəkişmələrin media müstəvisinə daşınmasından danışıb, islahatlara mane olmaq istəyən məmurlara xəbərdarlıq edib. Sizcə, dövlət başçısı kimləri nəzərdə tutur?**

- Burada konkret ad sadalamaq mümkün deyil. Digər tərəfdən də cənab Prezident bilir ki, hansı məmurlar Prezidentin yürütdüyü islahat kursuna maneə törətməyə çalışır, gizli yollarla sabotaj nümayiş etdirir. Əlbəttə, bunları cənab Prezident bilir, zamanı çatdıqca da bu insanlar öz cəzasını alacaq. Prezidentin irəli sürdüyü islahatlar kursu bir ildən artıqdır ki, sözün həqiqi mənasında, ölkədə öz nəticələrini göstərməkdədir. Sosial, sahibkarlıq, aqrar və iqtisadi islahatlar, vergi siyasəti, Əmək və Əhalinin Müdafiəsi Nazirliyinin xəttilə həyata keçirilən siyasətin müasir dünyanın standartlarına uyğunlaşdırılması, aztəminatlı ailələrə yardım sisteminin təkmilləşdirilməsi və s. sahələrdə çox ciddi işlər həyata keçirilib. İslahatlar nəticəsində büdcəyə daxilolmalar artıb. Əlbəttə, burada maddi marağına toxunulan şirkətlər, şirkət rəhbərləri də var. Bizim məmurların da bir qisminin yaxınları, ətrafında olan insanlar kommersiya ilə məşğuldur, bəzən kommersiya strukturlarında vergi sisteminə müqavimət hərəkətləri də müşahidə olunur. Bu barədə mediada da mütəmadi məlumatlar yayılır. Cənab Prezident bu çağırışları edir ki, şirkət rəhbərləri, məmurlar və onların ətrafındakı insanlar dövlətin islahatlar kursunu sabotaj etməsinlər. Dövlətin siyasi iradəsi ortadadır. Heç kim buna mane ola bilməz. Əgər beləleri aşkarlanarsa, onlar cəzalandırılacaqlar. Bəzən mübarizə aparmaq üçün mətbuatdan da istifadə edirlər. Ayrı-ayrı saytlarda, xüsusən də reket saytlarda başqa-başqa insanlar, o cümlədən islahatları həyata keçirən qurumlar haqqında müəyyən materiallar yayırlar. Belə hallara qarşı Azərbaycan Prezidenti və iqtidarı ciddi iradə meydana qoyub. Bu iradənin də nəticəsi olaraq bu tipli neqativ hallar tezliklə aradan qaldırılacaq.

# Prezidentin ermənilər üzərində "Valday" və Aşqabad triumflarından sonra radikalların Bakıda arxadan zərbələri...

## Məhərrəm Zülfüqarlı: "Azərbaycanın iqtisadi uğurları ilə yanaşı, bu kimi siyasi uğurları müəyyən beynəlxalq dairələri narahat edir"

**Məlum olduğu kimi, Prezident İlham Əliyev "Valday" Diskussiya Klubunda möhtəşəm çıxış edərək Ermənistanın işğalçılıq siyasətini bir daha ifşa etdi. O, Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bəyan etdi. Daha sonra oktyabrın 11-də Aşqabadda keçirilən MDB Dövlət Başçıları Şurasının Sammitində Prezident İlham Əliyev çıxış edərək Ermənistana növbəti zərbə endirdi.**



İlham Əliyev öz çıxışında Ermənistanın faşistlərin adını əbədiləşdirməsinə qəti etirazını bildirdi. "Faşistlərin qəhrəman kimi qələmə verilməsinin əleyhinə dəfələrlə çıxış etmişik" deyən dövlət başçısının fikrincə, təəssüf ki, MDB məkanında, xüsusən Ermənistanda belə hallar baş verir: "Orada əvvəlki hakimiyyət İrəvanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib. 2019-cu ilin mayında Rusiya Xarici İşlər Nazirliyi "Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi, neonasizmin yayılması və irqçiliyin, irqi ayrıseçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarının yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında" məruzə təqdim edib".

Prezident İlham Əliyevin "Valday" Diskussiya Klubunda verdiyi bəyanatlar, ardınca Aşqabadda Azərbaycanın mövqeyini tam əks etdirən fikirlər səsləndirməsi və sonra 9 aylıq hesabat toplantısının baş tutması fonunda "Milli Şura"nın 19 oktyabrda qanunsuz aksiya keçirməsi diqqətdən yayınmır. Məqsəd Azərbaycan Prezidentinin əldə etdiyi uğurlara kölgə salmaqdır. Bununla həm də Azərbaycan hakimiyyətinin siyasi uğurlarının effektini aşağı salmaq istəyirlər. Bu təxribat həm də Azərbaycana qarşı xaricdə fəaliyyət göstərən dairələrin maraqlarından irəli gəlir.

O baxımdan bütün bunları ekspertlər necə dəyərləndirirlər?

*"Milli Şura"nın qanunsuz aksiya cəhdi də xarici dairələrin sifarişini özündə ehtiva edir"*

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, məhz məlum dalbadal uğurlu siyasi gedişlərdən sonra "Milli Şura"nın icazəsiz aksiya cəhdi təsadüfi deyil: "Əvvələ nəzərə almaq lazımdır ki, Türkiyə və Pakistandan başqa, digər böyük ölkələr Azərbaycanın uğurlarına sevinmir. Böyük dövlətlər Azərbaycanın inkişafında, Qarabağ probleminin həllində maraqlı deyil. Çünki Azərbaycan inkişaf edib gücləndikcə, aparıcı dövlətə çevrilir, regionla yanaşı, dünyada söz sahibi olur. Prezident İlham Əliyev "Valday" Diskussiya Klubunda və Aşqabadda MDB dövlətlərinin tədbirində çox möhtəşəm çıxışlar etdi. Ermənistanın işğalçılıq siyasətini ifşa etməklə yanaşı, ermənilərin faşistlərə bəslədiyi rəğbəti dünyaya göstərdi. Azərbaycanın iqtisadi uğurları ilə yanaşı, bu kimi siyasi uğurları müəyyən beynəlxalq dairələri narahat edir. Ona görə də həmin dairələr Azərbaycanda qarşıdurma yaradıb stabilliyi pozmaq istəyirlər. Milli Şuranın qanunsuz aksiya cəhdi də xarici dairələrin sifarişini özündə ehtiva edir.

Çünki radikal müxalifət xaricdən idarə edilir. Qarşıdurma dərinləşsə, o zaman xarici dairələr öz istəyinə çatacaq. Nəticədə Azərbaycanın mənafeləri arxa plana keçəcək. Ona görə də bütün bunların arasında əlaqə var. Radikal müxalifət istəsə də, öz mövqeyini dəyişə bilməz. Çünki onlar xaricdən idarə edilir. Ona görə də Azərbaycan vətəndaşları ayıq olmalı və dövlətin güclənməsinə bilavasitə öz töhfələrini verməlidirlər".

***Vidadi ORDAHALLI***

# Nyu-York Jurnalistlər Komitəsinin ağ yalanı - Bakıda icazəsiz aksiyalarda polis jurnalistlərə barmaq ucu ilə toxunmadı...

## Müşfiq Ələsgərli: "...aksiyanın keçirildiyi məkana gələn media təmsilçilərinə hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən heç bir maneçilik törədilməyib"

**Oktyabr ayının 19-da bəzi destruktiv qruplar köhnə "ənənələrinə" sadiq qalaraq insanların rahatlığını pozmaqla razılaşdırılmamış küçə yürüşü keçirməyə, kütləvi iğtişaşlar törətməyə, asayişi kobud şəkildə pozmağa cəhd etdilər. Lakin hüquq-mühafizə orqanları tərəfindən qanunsuz yürüşün qarşısı alındı.**



Ancaq aksiyadan sonra müxalifət düşərgəsindən olan bəzi şəxslər və xaricdə fəaliyyət göstərən bir qrup jurnalist təşkilatları aksiya zamanı peşə fəaliyyətlərini yerinə yetirən media təmsilçilərinə maneçilik törədildiyini və saxlananlar arasında jurnalistlərin də olduğunu iddia edirlər.

Nyu-Yorkda yerləşən Jurnalistləri Müdafiə Komitəsi (JMK) oktyabrın 19-da Bakıda mitinq zamanı etirazçılarla birlikdə jurnalistlərin də saxlanması faktları ilə bağlı narahatlığını ifadə edib. Hətta JMK bununla bağlı bəyanat yayıb. Bəyanatda deyilir: "Azərbaycan hakimiyyəti jurnalistlərin nümayişləri işıqlandırması üçün şəraiti təmin etməli və qeyri-proporsional güc tətbiqindən yayınmalıdır".

Ancaq həqiqətdə isə vəziyyət fərqlidir. Aksiya zamanı peşə fəaliyyətlərini yerinə yetirən jurnalistlərə heç bir maneçilik törədilməyib. Əksinə, hüquq-mühafizə orqanlarının əməkdaşları üzərində "Press" geyimi olan şəxslərə çəkilişləri aparması üçün şərait yaradıblar. Bunu sosial şəbəkədə yayımlanmış paylaşımlar vasitəsilə də müşahidə etmək olar. Azərbaycan hakimiyyəti hər zaman peşə fəaliyyətini yerinə yetirən media təmsilçilərini lazımi şəraitlə təmin edib.

Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, 19 oktyabr mitinqini işıqlandırmaq üçün aksiyada iştirak edən media təmsilçilərinə peşə fəaliyyətlərini yerinə yetirməsi üçün hər bir şərait yaradılmışdı: "Jurnalistlər sərbəst şəkildə işlərini həyata keçiriblər. Sadəcə olaraq, aksiyada iştirak edənlər arasında jurnalist adından istifadə edənlər olub.

*"Aksiyada iştirak edənlər arasında jurnalist adından istifadə edənlər olub"*

Belə ki, həmin şəxslərin bir qismi original olmayan gödəkçələrdən istifadə ediblər. Əslində, onlar jurnalist deyil, aksiya iştirakçısı idilər. Həmin şəxslərin jurnalist gödəkçəsinin harada və necə əldə etdiyini araşdırdıq. Jurnalist adından istifadə edənlər yürüş zamanı şüarlar səsləndirirdilər. Belə olan halda, həmin şəxslər hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən nəzarətə götürüldülər.

Mətbuat Şurasına məxsus jurnalist gödəkçələrini geyinənlər isə yalnız peşə fəaliyyətlərini icra etməklə məşğul olublar. Mitinqi işıqlandırmaq üçün aksiyanın keçirildiyi məkana gələnlər peşəkar fəaliyyətlə məşğul olublar. Və onlara hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən heç bir maneçilik törədilməyib. Jurnalistlər sərbəst şəkildə qeydlərini götürüb, çəkilişlərini apararaq, reportajlarını hazırlayıblar".

***Günel CƏLİLOVA***

**Azərbaycanda ailə dəyərləri tarixən yüksək qiymətləndirilib, bu müqəddəs məfhumun mühafizə və müdafiə edilməsi əsas götürülüb. Çox təəssüflər olsun ki, son zamanlar cəmiyyətdə müəyyən qüvvələr "qadın azadlığı, gender bərabərliyi" adı altında müxtəlif təxribatçı fikirlər irəli sürürlər.**

# İlqar Məmmədovun "qadınlar dəstəsi" ailənin mənəvi əsasları üçün təhlükəli konvensiyanı Azərbaycana gətirmək istəyir

## *Esmira Fuad: "Mən ənənəvi ailə modelinin qorunmasının tərəfdarıyam"*



Məlum olduğu kimi, bir neçə gün əvvəl Real Partiyasının sədri İlqar Məmmədovun öyrədərək təxribata cəlb etdiyi bir qrup qadın şəhərin mərkəzində icazəsiz aksiya keçirməyə cəhd göstərdi. "Konvensiyanı rədd etmə, qadınları qətl etmə!" və digər şüarlar səsləndirilən bu aksiyada bir qrup "azad qadın" Azərbaycanın İstanbul Konvensiyasına qoşulmasını tələb edirdi. Sözsüz ki, "azad qadın" dəstəsinin bu aksiyası milli adət-ənənələrimizə, ailə dəyərlərimizə zərbə vurmağa, onları laxlatmağa nail olmağa hesablanmışdı.

Barəsində danışılan İstanbul Konvensiyasının ("Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında" Avropa Şurası Konvensiyası) Azərbaycan tərəfindən imzalanmasına, ratifikasiya olunmasına yönəlik çağırışlar edən İlqar Məmmədovun "azad qadın" dəstəsi, əslində, bununla Azərbaycan xalqının ənənəvi ailə modelini dağıtmaq niyyəti güdür.

Qeyd edək ki, konvensiyanın tələbləri ilə tanış olan ekspertlər qeyd edirlər ki, əslində, bu sənəddə qadın hüquq və azadlıqlarının təmin olunmasından çox, başqa məsələlər əsas götürülür. Daha dəqiq desək, bu sənəd ənənəvi ailə modeli və bütünlükdə adına milli mental dəyərlər deyilə bilən nə varsa, onların aradan qaldırılmasına, ailədə ənənəvi qadın stereotiplərinin sındırılmasına hesablanıb. Yəni İstanbul Konvensiyası hüquqi sənəddən daha çox ideoloji sənəddir. Bu ideoloji sənəd də ailələrin əridilməsinə, milli ailə institutlarının məhv edilməsinə hesablanıb.

Məsələyə münasibət bildirən filologiya üzrə fəlsəfə doktoru, dosent, tanınmış qələm adamı Esmira Fuad hesab edir ki, Avropa Şurasının bizə qəbul etdirmək istədiyi sənədlərin bir çoxu zərərlidir və milli dəyərlərimizin, ailə institutumuzun dağılmasına hesablanıb. E.Fuad hesab edir ki, İstanbul Konvesniyasının qadın hüquq və azadlıqlarının gender bərabərliyinin qorunmasına deyil, birbaşa ailə dəyərlərinin dağıdılmasına hesablanması təhlükəli tendensiyadır. Azərbaycanda bəzi qüvvələrin bu sənədin qəbul edilməsinə tərəfdar olmasından təəssüfləndiyini deyən E.Fuadın sözlərinə görə, Azərbaycan dövləti İstanbul Konvensiyasına qoşulmamaqla, onu ratifkasiya etməməklə ailə dəyərlərimizi təhlükədən qoruyur. "Bəzi qrupların Azərbaycanı bu kimi ideoloji konvensiyalara qoşmaq istəyini normal qəbul etmirəm. Bilirsiniz, biz həmişə deyirik ki, Avropaya, dünyaya inteqrasiya edək, onlara qoşulaq. Olsun. Amma nədə? Biz onların yaxşı şeylərini götürək, pis şeylərini yox. Təəssüf ki, bizə Avropanın zərərli dəyərlərini qəbul etdirmək istəyirlər. Bizim özümüzün çox yüksək dəyərlərimiz var ki, bu dəyərlər ən sivil sayılan ölkələrə də nümunə ola bilər. Məsələn, böyüyə hörmət, kiçiyə sevgi, qadına, anaya hörmət bizim cəmiyyətdə əsrlərlə mövcud olub, bu gün də davam edir. Türk ailəsində hər zaman ana, qadın xüsusi hörmət sahibi olub. Təbii ki, Azərbaycanda insan hüquqlarının qorunmasına həmişə böyük əhəmiyyət verilib, bu müvafiq sənədlərdə də öz əksini tapıb. Qadın hüquqlarının qorunması sahəsində də yüksək pillədəyik. Mən Güney Azərbaycan ədəbiyyatının araşdırıcısı kimi hər zaman güney azərbaycanlı qadınlarla Quzey Azərbaycandakı qadınların ailədə və cəmiyyətdəki mövqeyini müqayisə etmişəm. Quzey Azərbaycanda qadınlar daha çox cəmiyyətdə, Güney Azərbaycanda isə ailədə daha azaddırlar. Quzey Azərbaycan qadınları cəmiyyətdə, ictimai aləmdə daha üstün mövqeyə malikdirlər. Azərbaycan qadını özünü tamamilə işə həsr etməli deyil, qadın ailəyə də üstünlük verməlidir. Biz dəyərlərimizin, əldə etdiklərimizin qədrini çox zaman bilmirik. İstanbul Konvensiyasının qəbul edilməsinə gəlincə, deyim ki, bu konvensiyanın əsas məqsədi ənənəvi ailə modelini, ailə dəyərlərini dağıtmaqdır. Mən ənənəvi ailə modelinin qorunmasının tərəfdarıyam, üç-beş insanın ambisiyasına görə öz ənənələrimizdən, əsrlərlə formalaşan ailə gələnəklərindən, ailə institutundan imtina etməyi heç cür qəbul edə bilmərəm. Bir ziyalı kimi bunu pisləyirəm. Müəyyən siyasi qüvvələr tərəfindən Azərbaycana daşınıb gətirilməsi nəzərdə tutulan hər bir zərərli ideologiya bizim ailə dəyərlərimizi sarsıtmağa hesablanıb. Amma biz buna imkan verməməliyik. Əsrlərdən bəri daşınıb yaşadılan ənənəvi ailə gələnəklərinin qorunmasının, təbliğ edilməsinin tərəfdarıyam, özüm də bu yoldayam. Qadınlara İstanbul Konvensiyasının tələblərinə uyğun "azadlıq verilməsi"nin tərəfdarı deyiləm. Bəzi qadınlar azadlığı necə görmək istədiklərini anlaya bilmirəm. "Urra" psixologiyası ilə qadınlar bu tendensiyanın, İstanbul Konvesniyasının arxasınca gedəcəksə, biz Azərbaycandakı qutsal ailə dəyərləri ilə vidalaşmalı olacağıq. Qadına "azadlıq" verilməsi o demək deyil ki, o istədiyini etməlidir. Bu bizi hara aparacaq, heç onu düşünüblər?".

*"Urra" psixologiyası ilə qadınlar bu tendensiyanın, İstanbul Konvensiyasının arxasınca gedəcəksə, biz Azərbaycandakı müqəddəs ailə dəyərləri ilə vidalaşmalı olacağıq"*

**E.Fuadın sözlərinə görə, Azərbaycan dövlətindən İstabul Konvensiyasının qəbul edilməsini tələb edənlər Avropanın özünün Şərq dəyərlərini mənimsəyərək onun üzərində inkişaf etdiyindən xəbərləri yoxdurmu?**

Alim hesab edir ki, Azərbaycan dövlətində qadın hüquq və azadlıqları kifayət qədər qorunur və bəzi qruplar da bundan sui-istifadə edərək daha böyük "azadlıq" tələb etməməlidirlər. E.Fuadın dediyinə görə, hər bir Azərbaycan vətəndaşı ailə dəyərlərimiz üçün zərərli olan tendensiyalara, ideologiyalara qarşı mübarizə aparmalıdır.

***İradə SARIYEVA***

# Türk ordusuna Suriyada kimyəvi silah iftirası...

## *Türkiyə Səfirliyi açıqlama yaydı*




**Türkiyənin Bakıdakı Səfirliyinin Mətbuat Müşavirliyi ölkəsinin Suriyada apardığı "Sülh bulağı" əməliyyatının dünya mediasında və sosial şəbəkələrdə qaralanmasına edilən cəhdlərlə bağlı açıqlama yayıb.**

Azərbaycanın mətbu orqanlarına ünvanlanan, o cümlədən "Bakı Xəbər" redaksiyasına daxil olan açıqlamada deyilir:

Cənub sərhədimizdə yaradılmağa çalışılan terror dəhlizini yox etmək, bölgəyə sülh və dinclik gətirmək məqsədilə başladılan "Barış Pınarı" (Sülh bulağı) hərəkatına qarşı terror təşkilatı YPG/PKK tərəfdarı olan mətbu orqanlar və bəzi sosial media hesablarından saxta təbliğat davam etməkdədir. Bu məqsədlə onlar "Barış Pınarı" əməliyyatı əsnasında beynəlxalq müharibə qanunlarına zidd olan döyüş sursatlarının istifadə edildiyi yalanını yaymağa çalışırlar. Sosial media hesablarında "Ərəb Baharı"nda Liviyada bir fosfor bombası yuvasının fotoşəkili istifadə edilərək, "Türk Ordusu ABŞ-ın Rasulayn şəhərində ağ fosfor bombalarından istifadə edir" kimi yalan məlumatlar yayılıb.

Türkiyəni qaralamaq üçün paylaşılan həmin fotoşəkilin 2012-ci ildə ABŞ-ın "New York Times" qəzetində Liviyada "Ərəb Baharı" dövründə Qəddafiyə qarşı döyüşən qüvvələrin istifadə etdiyi silahlarla bağlı məqalədə nümayiş olunduğu bəlli olub. PKK/PYD tərəfdarlarının bomba qabığının altındakı və yuxarındakı daşları silməklə orijinal şəkli saxtalaşdırdığı ortaya çıxıb. O da bəlli olub ki, ABŞ istehsalı olan bomba Liviya hökmdarı Kral İdrisə Vaşinqton tərəfindən "Soyuq müharibə" dövründə verilib.

Beləliklə, terror təşkilatı tərəfdarlarının "Sülh bulağı" əməliyyatı zamanı qadağan edilmiş kimyəvi silahlardan istifadə olunması ilə bağlı yalanı ifşa olunub. Digər tərəfdən, Milli müdafiə naziri Hulusi Akar terror təşkilatının kimyəvi silahdan istifadə edərək günahı Türkiyə ordusunun üzərinə atmağa hazırlaşdığını deyib.

Ölkəmizə atılan böhtanlar və həqiqətlər barədə ictimaiyyətin məlumatlandırılmasında yardımınızı xahiş edirik və işlərinizdə uğurlar diləyirik.

# Fransada erməni qəzetinin redaksiyasına basqını da türklərin üstünə atmaq istəyirlər

## *Azər Həsrət: "Bu cür hücumları ermənilər özləri təşkil edir və sonradan bunun türklər tərəfindən edildiyini iddia edirlər"*

**Avropa ölkələrində mövcud olan ermənidilli qəzetlərin zərərli fəaliyyəti haqqında faktlar yetərincədir. Bu nəşrlərin zərərli fəaliyyətləri heç kəs üçün gizlin deyil. Fransada nəşr edilən "Ноувеллесд'Армяние" qəzetinin redaksiyasına basqın edilməsi barədə məlumatlar yayılıb.**



Erməni mediasının yazdığına görə, bu barədə media və ictimaiyyəti məlumatlandıran sözügedən qəzetin baş redaktoru Ara Toranyan basqın əsnasında 3 kompyuterin oğurlandığını bildirib. O qeyd edib ki, həmin kompyuterlərdə "gizli məlumatlar" mövcud olub. Lakin o, redaksiyaya məxsus kompyuterdə hansı "məxfi məlumatlar"ın mövcud olması ilə bağlı əlavə açıqlama verməyib.

Qəribədir ki, erməni baş redaktor sözügedən basqına görə dolayısı ilə türkləri ittiham edib. O bu basqını Parisdə türklərə qarşı keçirilən aksiyalarda iştirak etməsi ilə əlaqələndirib.

Erməni baş redaktorun qəzet redaksiyasına türklərin hücum etdiyini iddia etməsinin heç bir ciddi əsası olmadığını deyən tanınmış media eksperti, Əməkdar jurnalist Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, qəzet redaksiyalarına basqınlar və terror hücumları təşkil etmək ermənilərə məxsus bir ənənədir. O hesab edir ki, bu işdə türklərin günahkar kimi təqdim edilməsi əsassızdır. A.Həsrətin sözlərinə görə, indiyə qədər Avropa ölkələrində ermənidilli qəzetlərin redaksiyalarına hücumlar olubsa, bunun hamısını ermənilər özləri təşkil edib. "Bu gün ermənilər başlarına gələn ən kiçik hadisələrə belə "bunu türklər edib" donu geydirmək istəyirlər. Əslində isə bu cür hücumları ermənilər özləri təşkil edir və sonradan bunun türklər tərəfindən edildiyini iddia edirlər. Ermənilərin özü tərəfindən planlaşdırılan bu cür hücumlar türkləri gözdən salmağa xidmət edir. Ermənilər tarixən xəyanət yolu tutublar və xain davranışlarla fərqləniblər. Ümumiyyətlə, Avropada da yaxşı bilirlər ki, türklər bu cür hadisələr törədən xalq deyil, türk milləti düşmənlə döyüşü üzüzə, açıq cəbhədə aparmağı sevir. Əgər həmin qəzetin redaksiyasına türklər hücum etmiş olsaydı, onlar bunu gizlətməzdilər, açıq bəyan edərdilər. Hesab edirəm ki, erməni qəzetinin redaksiyasına hücum türklərlə bağlı deyil, erməni redaktor bu işdə türklərin əli olduğunu iddia etməklə özünü gülünc vəziyyətdə qoyur.

*"...erməni redaktor bu işdə türklərin əli olduğunu iddia etməklə özünü gülünc vəziyyətdə qoyur"*

Ermənilər qondarma soyqırım iddiası ilə çıxış edən bir toplumdur. İndi də özləri tərəfindən qəzet redaksiyasına basqın təşkil edilib və bunu da türklərin ayağına yazmaq istəyirlər. Amma, təbii ki, bu, şər və böhtan, növbəti erməni saxtakarlığıdır".

**A.Həsrət hesab edir ki, ermənilər ilk dəfə deyil türklərə qarşı əsassız iddialar irəli sürürlər. Onun sözlərinə görə, nəticədə isə ermənilər özləri pis vəziyyətdə qalırlar.**

***İradə SARIYEVA***

# Suriyadan çəkilən ABŞ əsgərlərinə atılan yumurtalar - sadə kürdlər PKK terrorçuları ilə birlikdə olduğunu göstərir

## *Məhəmməd Əsədullazadə: "Bu onu göstərir ki, Suriyada kürdlərin böyük çoxluğu PKK terror təşkilatına simpatiya bəsləyir"*

**Kürd qüvvələri Suriyanın şimalından çəkilməyə davam edir. Bu arada ABŞ hərbçiləri də Suriyanın şimalını tərk edirlər. Oktyabrın 21-də 100 zirehli avtomobildən ibarət ABŞ hərbi konvoyu Suriya ərazisindən İraqa keçib. Suriyanın İraqla sərhəddə yerləşən Simelka sərhəd-keçid məntəqəsindən İraqa keçən qüvvələr İraqın Duhok ərazisindən keçməklə Ənbar vilayətindəki Ayn əl-Əsəd hərbi bazasına yerləşiblər.**



Ancaq Suriyanın şimal-şərqində yerləşən və kürdlərin işğalı altında olan Əl-Kamışlı şəhərinin sakinləri ABŞ hərbi maşınlarının ölkədən çıxan karvanına daş və tərəvəz atıblar. Qeyd olunur ki, belə reaksiya ABŞ Prezidenti Donald Trampın Suriyanın şimalından qoşunları çıxarmaq qərarına cavab olaraq göstərilib. Bununla bağlı yayılan videokadrlardan görünür ki, yerli əhali Amerika hərbi və yük maşınlarının yolunu kəsməyə çalışır, onlara daş, kartof və pomidorlar atırlar. Hərbi konvoyun qarşısını kəsən etirazçı qrup ABŞ əleyhinə şüarlar səsləndirərək Vaşinqtonu kürdlərə xəyanətdə ittiham edib.

Türkiyə hər zaman bəyan edib ki, bu ölkə kürdlərə qarşı yox, terrorçu təşkilat olan PKK-ya və onun qolu olan YPG-yə qarşı vuruşur. Məqsəd bölgəni terrorçulardan təmizləmək, orada yaşayan dinc insanların təhlükəsizliyini təmin etməkdir. Ancaq bölgədə yaşayan sakinlərin ABŞ-ın öz hərbçilərini oradan çıxarmasına bu cür etiraz etmələri müəyyən suallara yol açır. Belə məlum olur ki, Suriyanın şimalında yaşayan kürdlər PKK və YPG ilə bir yerdədirlər. Onların fəaliyyətini dəstəkləyirlər.

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, bu onu göstərir ki, Suriya kürdlərinin böyük hissəsi PKK-ya rəğbət bəsləyir: "Türkiyənin Şimali Suriyada PKK terror təşkilatının Suriya qolu olan YPG terror təşkilatına qarşı hərbi əməliyyatı əsasən bu terror qruplaşmasının məhv edilməsinə yönəlib. Heç vaxt Türkiyə sadə kürdlərə qarşı hərbi əməliyyat keçirmir. Baxmayaraq ki, Suriyada kürdlərin böyük çoxluğu PKK terror təşkilatına simpatiya bəsləyir. Yaşananlar bunu göstərir. Biz bunu ABŞ hərbçilərinin Suriyanın kürdlərin yaşadığı ərazilərdən çıxarkən onlara qarşı etirazından görürük. Demək, burada kürdlər daim terrorçuları dəstəkləyiblər. ABŞ öz maraqları kontekstində Türkiyə ilə anlaşaraq bu regionu tərk edir. Hesab edirəm ki, burada kürdlər sözügedən terror qruplaşmasını dəstəkləməklə Suriyadan ayrılmağı planlayırlar. Ona görə də ABŞ-ı bu terror təşkilatını müdafiə etməməkdə günahlandırırlar.

*"Onlar terrorçuları dəstəkləməklə, bir növ, Türkiyəyə qarşı düşmənçilik siyasəti aparırlar"*

Türkiyənin "Barış Pınarı" hərbi əməliyyatı uğurla davam edir.

Demək olar ki, Türkiyə öz hərbi və siyasi hədəflərinə yaxınlaşıb. 120 saat bitdikdən sonra terrorçular regiondan çıxmasa, Türkiyə yenidən hərbi əməliyyatları davam etdirəcək. Məhz burada Türkiyə elə bir incə əməliyyat həyata keçirir ki, mülki insanlara və infrastruktura ziyan dəymir. Bu, Türkiyənin dinc əhaliyə böyük önəm verməsinin göstəricisidir. Ancaq oradakı kürdlər PKK və YPG-ni dəstəkləməklə, bir növ, Türkiyəyə qarşı düşmənçilik siyasəti aparırlar. Ancaq buna baxmayaraq, Türkiyə yenə də kürdlərə qarşı qəti surətdə hərbi fəaliyyətə yol vermir".

***Vidadi ORDAHALLI***

**Azərbaycanın nəqliyyat infrastrukturu son dövrlərdə Mərkəzi Asiya ölkələrinin də diqqətini özünə daha çox cəlb etməkdədir. Belə görünür ki, burada yer alan ölkələr yüklərini daha böyük həcmdə Azərbaycan üzərindən dünya bazarlarına çıxarmaqda maraqlıdır.**

# Daha bir Mərkəzi Asiya ölkəsinə Azərbaycan üzərindən Avropaya yük daşımaq imkanı açıldı...

Xatırladaq ki, Bakı-Tiflis-Qars dəmir yolu xətti işə düşdükdən sonra Qazaxıstan yükdaşımalarda Azərbaycanın tranzit imkanlaırndan geniş şəkildə faydalanır. Amma artıq bu sıraya Özbəkistan da qoşulmağa hazırlaşır. Özbəkistan baş nazirinin müavini Elyar Qaniyev bildirir ki, Azərbaycanın Ələt limanı "Orta dəhliz"in nəqliyyat potensialından maksimum istifadə etməyə imkan yaradır.

O, "Azərbaycan, Türkiyə və Gürcüstanın dəniz limanları regionlararası nəqliyyatın inkişafında necə rol oynayır və daha hansı formada tərəfdaşlığa ehtiyac var" sualına cavab verərkən bildirib ki, Xəzəryanı ölkələrin liman infrastrukturunun inkişafı Bakı-Tiflis-Qars (BTQ) dəmir yolu xəttinin önəmini də əhəmiyyətli dərəcədə artırır: "Böyük dənizlərə çıxış üçün bizə ən yaxın liman Poti limanıdır. Həmçinin, bizim yaxın tərəfdaşlarımız və qonşularımız olan Azərbaycan, Türkmənistan, Türkiyə və bütün region ölkələrinin limanlarından istifadə etməkdə maraqlıyıq. Bu bizə səmərəli nəqliyyat dəhlizi imkanı yaradır. Bu baxımdan Bakı-Tiflis-Qars böyük önəmə sahibdir və o, Türkiyə və Avropa dəmir yolu şəbəkəsinə çıxış baxımından böyük imkanlara sahibdir". Baş nazir müavini qeyd edib ki, region ölkələri öz nəqliyyat və enerji infrastrukturlarını son illərdə əhəmiyyətli şəkildə inkişaf etdiriblər: "Azərbaycanın Ələt, Gürcüstanın Poti, Qazaxıstanın Kureki limanları sürətlə inkişaf edir. Bu bizə müvafiq dəhlizin tranzit imkanlarından maksimum istifadə etməyə şərait yaradır".

Xatırladaq ki, Özbəkistan prezidenti Şavkat Mirziyoyev Türk Şurasının Bakıda keçirilmiş Zirvə Görüşündə çıxışı zamanı Bakı-Tiflis-Qars amilinə xüsusi toxunmuşdu: "Bakı-Tiflis-Qars dəmir yolu xəttindən səmərəli istifadə əhəmiyyətlidir. Nəqliyyat, loqistika əlaqələrinin inkişafı ölkələr arasında münasibətlərin irəliləməsinə töhfə verəcək, eyni zamanda Özbəkistanın şəhərlərini Avropaya daha da yaxınlaşdıracaq". Ümumiyyətlə, ekspertlər bildirir ki, sözügedən dəmir yolu Mərkəzi Asiya ölkələrinin, yəni Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistan, həmçinin Əfqanıstanın Avropa, dünya bazarlarına çıxışını asanlaşdırır. Avropa və Asiya ölkələrinə məxsus yüklərin bu dəmir yoluna cəlb edilməsi hər iki istiqamətdə multimodal daşımaların həcmini artırmağa imkan verir. Bütün bunlar Bakı-Tiflis-Qars xəttinin əhəmiyyətini, onun təhlükəsizliyini, etibarlılığını aydın göstərir. Elə iqtisadçı ekspert Vüqar Bayramov da deyir ki, Bakı-Tiflis-Qars dəmir yolu nəqliyyat dəhlizlərinin birləşdirilməsi baxımından vacibdir: "Bu bizə imkan verir ki, Avropa və Asiyanı, xüsusən də Mərkəzi Asiya ilə Qara dəniz hövzəsini dəmir yolu xətti vasitəsilə birləşdirmək mümkün olsun. Asiyada Çin və digər ölkələr regiona böyük məbləğdə məhsullar ixrac edir. Bu da onların ixrac imkanlarının genişləndirilməsi baxımından vacibdir. Sözügedən dəmir yolu xətti həm də Azərbaycanın qeyri-neft məhsullarının Türkiyə və digər ölkələrin bazarlarına çıxmasına imkan yaradır". Belə vəziyyətdə Bakı-Tiflis-Qarsla Azərbaycanın regional gücü artır. Belə ki, indi aydın görünür ki, Türkiyə və Mərkəzi Asiya ölkələri arasında quru yolu üzərində Azərbaycan əsas faktora çevrilir. Eləcə də ölkəmiz "Böyük İpək Yolu" layihəsinin həyata keçməsi ilə Çindən Avropaya qədər olan marşrut xəttində əsas paya sahib olmaqdadır. Belə demək mümkünsə, Uzaq Şərqlə Avropa arasında paylayıcı rol oynamaqla ölkəmizin iqtisadi və siyasi əhəmiyyəti Avropa və Avrasiyada daha da yüksəlir. Bu mənada, Orta Asiya ölkələrinin Azərbaycanın tranzit imkanlarına artan diqqəti də tamamilə təbii qarşılana bilər.

Beləliklə, görünən budur ki, Qazaxıstandan sonra Özbəkistan da yüklərinin bir hissəsini məhz Azərbaycan üzərindən dünya bazarlarına çıxarmağı düşünür. Əslində, Lapis-Lazuli nəqliyyat dəhlizi işə düşdükdən sonra Türkmənistan da yüklərinin bir hissəini Azərbaycan üzərindən dünya bazarına çıxarır. Amma belə bir vaxtda Xəzər dənizi-Qara dəniz marşrutunun ərsəyə gətirilməsinin də aktuallaşması bütövlükdə Mərkəzi Asiyanın Azərbaycana marağının daha da yüksəlməsinə rəvac verəcək. Söhbət sözügedən marşrut nəticəsində Rumınıya vasitəsilə Avropaya daha çox yüklərin daşınmasının mümkünlüyündən gedir. Real vəziyyətin təhlii göstərir ki, hazırda Rumınıya özünün Konstansa limanının Xəzər və Qara dənizi birləşdirəcək nəqliyyat-tranzit dəhlizinin əsas və aparıcı halqalarından birinə çevrilməsi üçün bütün imkanlarını işə salıb. Konstansa limanı Türkmənistanın Türkmənbaşı limanından, eləcə də Qazaxıstan və Özbəkistandan, digər Mərkəzi Asiya ölkələrindən Avropa bazarına göndəriləcək yüklərin əsas məntəqəsinə çevrilə bilər. Daşınma marşrutu xüsusi konteynerlərlə yüklərin Xəzər dənizi vasitəsilə Bakıya, oradan dəmir yolu vasitəsilə Batumi və yaxud Potiyə, buradan isə dənizlə Rumıniyaya göndərilməsini nəzərdə tutur. Ekspertlərin qənaətincə, bütün Mərkəzi Asiya ölkələri Xəzər dənizi-Qara dəniz marşrutunda potensial maraqlı dövlətlər qismində çıxış edə bilər. Digər tərəfdən, bu layihədə Qara dəniz hövzəsi ölkələri, Rumıniya ilə yanaşı, Türkiyə, Ukrayna və Bolqarıstan da iştirak edə bilər. Hazırda bu istiqamətdə görülən işlər Azərbaycan üzərindən keçən daha bir vacib naqliyyat dəhlizinin işə salınacağını göstərir. Buna adekvat olaraq Azərbaycan davamlı şəkildə nəqliyyat və logistika infrastrukturunu inkişaf etdirir. Ölkə qısa zamanda yük daşımaları üçün əlverişli infrastruktur yarada bilib. Bütün bunlar artıq qlobal miqyasda Azərbaycana daha çox diqqət yetirilməsinə rəvac verir.




***Nahid SALAYEV***

**Artıq müəyyən müddətdir ki, dünya iqtisadiyyatında ticarət zamanı dollardan imtina gündəmdədir. Azərbaycanın da xarici ticarətində dollardan istifadə geniş hal olduğundan, məsələ ölkəmizin də diqqət mərkəzində yer alır. Belə görünür ki, qarşıdakı dövr ərzində dünya ticarətində dolların payının sıxışdırılıb çıxarılması bir çox ölkələr üçün əsas prioritetlərdən olacaq.**

# Valyuta ehtiyatlarımızda avro, yuan və qızılın payı sürətlə artacaq - uduşumuz nə olacaq...

Artıq bəlli olduğu kimi, bu xüsusda Azərbaycanın böyük qonşuları da fəal siyasət aparır. Məsələn, elə bu günlərdə Rusiyanın Maliyyə Nazirliyi ilə Türkiyənin Xəzinə və Maliyyə Nazirliyi arasında hesablaşma və ödənişlərin milli valyutalarda aparılması ilə bağlı saziş imzalanıb. İran da eyni addımlar atır.

Rusiyanın maliyyə naziri Anton Siluanov vurğulayır ki, ölkəsi 2020-ci ildə dollar olmayan pul vahidləriylə, əsasən də avro və ya yuanla borc alacaq. Rusiya Mərkəzi Bankının məlumatına görə, ölkənin beynəlxalq ehtiyatlarında dolların payı ötən il 2017-ci illə müqayisədə 23,1 faiz azalaraq 22,7 faizə bərabər olub. Avronun payı 10 faiz artaraq 31,7 faizə, yuanın payı isə 11,4 faiz artaraq 14,2 faizə bərabər olub. Cari ilin sonunda dolların payının azalması fonunda avro və yuanın payının daha da artması proqnozlaşdırılır. Bundan başqa, Rusiya və Çin də milli valyutalarda hesablaşmalara keçid haqqında hökumətlərarası razılaşma imzalayıb. Hazırda Rusiya və Çin müəssisələri arasında yeni hesablaşma mexanizmlər yaradılır. Çin, Rusiya ilə yanaşı, hesablaşmaların milli valyutalarda aparılması ilə bağlı bir sıra digər ölkələrlə də müqavilə imzalayıb. ABŞ-ın "Project Syndicate" nəşri yazır ki, belə vəziyyət dollar üçün ciddi təhdid yaradır: "ABŞ prezidenti Donald Trampın antoqonist Çin siyasətindən imtina etməyə hazır olduğunu düşünmək indi sadəlövhlük olar. Əslində, Tramp rəhbərliyi bu dəfə maliyyə axınları ilə əlaqədar olaraq Çinlə yeni bir müharibəyə hazırlaşır. Özü də dollar üzərindən.




Dolların aparıcı qlobal ehtiyat valyuta mövqeyi ABŞ-a, Fransanın maliyyə naziri olmuş Valeri Jiskar d`Estenin təbirilə, "ifrat güzəşt"dir: Amerika pulları kiçik dəyərlə çap edə, qlobal miqyasda mal və xidmətlər almaq üçün istifadə edə bilər. Lakin qlobal kapital bazarlarının açılması ilə ABŞ həm də dünyanın qalan hissəsində üstün cəhətlər əldə edib. Bu gün qlobal ticarətin təxminən 80%-i dollarla aparılır və beynəlxalq əməliyyatların çoxu son nəticədə ABŞ maliyyə sistemi vasitəsilə təmizlənir. Dünya Banklararası Maliyyə Telekommunikasiya (SWIFT) şəbəkəsi ilə Avroamerikan cəmiyyəti gündəlik 16 milyon ödəniş sifarişləri tranziti həyata keçirir.

Beləliklə, ABŞ-ın kapital axınının məhdudlaşdırılması hər hansı bir ticarət tarifinə nisbətən daha təsirlidir. Onları tətbiq etmək üçün yalnız 1977-ci ilin Beynəlxalq Fövqəladə İqtisadi Güclər Aktına (IEEPA) istinad etmək lazımdır. IEEPA ABŞ-ın bir çox sanksiya proqramı üçün qanuni zəmin hazırlayıb, prezidentlər, əsasən əməliyyatların qarşısını almaq və aktivləri dondurmaq üçün ondan istifadə edib. Ona sərf etdikdə, Tramp da Meksikaya idxal tariflərini əsaslandırmaq və ABŞ şirkətlərindən "dərhal alternativ axtarmağa başlamağı" tələb etmək üçün IEEPA-ya dönə-dönə istinad edib. Venesuela prezidenti Nikolas Maduronun istefasına ümidlə IEEPA-dan dövlət neft şirkəti PDVSA-nın aktivlərini dondurmaq üçün də istifadə olunub. Populyar inancın əksinə olaraq, Tramp sələflərindən daha çox sanksiya tətbiq etməyib. Lakin o, xüsusilə yaradıcı yollar hazırlayıb: Amerikanın qeyri-mütənasib maliyyə imkanlarından faydalanan administrasiyanın tədbirləri, üçüncü tərəflərə təsirindən asılı olmayaraq, maksimum ziyan vurmanı təmin edir. Məsələn, Rusiya yalnız standart aktivlərin dondurulması və əməliyyat blokları ilə üzləşmir, eyni zamanda, ABŞ-ın bank sisteminə daxil olmaq və satınalma müqavilələrindən kənarlaşdırılma məhdudiyyətləri ilə üzləşir.

Artıq ixrac azalması, ləng investisiya, zəif istehlak və artımın yavaşlaması ilə mübarizə aparan Çin, yəqin ki, növbəti hədəfdir. Tramp administrasiyası kapitalın Çinə axınına qoyulan məhdudiyyətləri, o cümlədən ABŞ-ın pensiya fondlarının Çin kapital bazarlarına investisiya qoymasını, Çin firmalarının ABŞ birjalarından çıxarılmasını və ABŞ firmalarının idarə etdiyi fond indekslərinə girişi məhdudlaşdırmağı düşünür. Bu yanaşma qısa müddətdə işləyə bilər. Amma Trampın təkrarən dolları silahlandırması ABŞ dolları ilə təsdiqlənmiş aktiv sahibləri arasında etimadı sarsıdır. Neçə xarici şirkət "qara siyahı"ya salına biləcəyini bilə-bilə ABŞ birjasında təmsil olunmaq istəyər? Hansısa geosiyasi atışma dondurulma ilə nəticələnə bilərsə, ABŞ-dan olmayan rezidentlər ABŞ banklarında aktivlərini nə qədər saxlayacaq?

ABŞ-a etinasızlıq artdıqca, Çinin son 10 ildə müdafiə etdiyi beynəlxalq pul islahatlarına təkan veriləcək. Bu digər valyutaların, məsələn, avronun və ya Çin yuanının beynəlxalq rolunun genişlənməsi deməkdir. Eyni zamanda, inkişaf etməkdə olan ölkələrin, xüsusən də neft və mal ixracatçılarının ehtiyaclarına yönəldilmiş alternativ pul sisteminin yaradılması baş verə bilər. Bununla qlobal iqtisadiyyatı on illər boyu dəstəkləyən ticarət və maliyyə sisteminin parçalanmasından başqa, dağıdıcı bir qarşıdurma mərhələsinin təməli qoyulur. Belə vəziyyətdə dollardan imtina edənlərin sayı sürətlə arta bilər və bu da ABŞ üçün ciddi problemlər vəd edir". Ekspertlər hesab edir ki, ölkələr ticarətdə dolların payını azaltmaq istəsələr də, alternativ olaraq avrodan və yuandan da çox istifadə edirdər. Bu isə o deməkdir ki, dolların yerini tədricən avro və qismən də yuan tutmağa başlayır.

Belə vəziyyətdə Azərbaycanın dollar ehtiyatının bir hissəsini qızılla əvəzləməsi ekspertlər tərəfindən yüksək qiymətləndirilir. Çünki artıq bir çox ölkələr analoji addımlar atır. Hesab olunur ki, yaranmış vəziyyətdə Azərbaycanın da ehtyiatlarında avro və yuanın, eləcə də qızılın artması gözlənilləndir. Həmçinin Azərbaycan Türkiyə və Rusiya ilə ticarətin bir hissəsini artıq milli valyuta ilə aparır. Eləcə də İran və Gürcüstanda manatın işlənmə dairəsi genişlənir. Bu isə o deməkdir ki, ölkəmizdə də xarici ticarətdə dolların payının azalması qaçılmaz olacaq.

***Tahir TAĞIYEV***

# İsveçrə bankı Azərbaycan kredit bazarına girmək istəyir - kredit faizləri düşəcəkmi...

**Son zamanlar Azərbaycanın bank sektoruna xarici bankların marağı artır. İsveçrənin "Banque Cantonale de Gen?ve" (BCGE) bankı da Azərbaycanda maliyyə xidmətləri və kapitalın idarə edilməsi ilə bağlı xidmətlər göstərmək istəyini bildirib. Bunu BCGE-nin icraçı direktoru Mario Al Jebouri Azərbaycan-İsveçrə biznes forumunda deyib.**




***Fuad İbrahimov:** "Nəzərə almaq lazımdır ki, kapital axını və kapital yerləşdirilməsində bolluq yaranarsa, sağlam rəqabət də yaranar"*

O qeyd edib ki, regionda mövqelərimizi daha da möhkəmləndirmək istəyirik: "Azərbaycanda geniş imkanlar var. Biz istərdik ki, burada maliyyə xidmətləri və kapitalın idarə edilməsi ilə bağlı xidmətlər göstərək".

Bir sıra ekspertlərin fikrincə, xarici bankların Azərbaycanda fəaliyyətinə şərait yaradılmasının zamanı çatıb. Çünki ölkədə bank sektorunda yaranmış kapital çatışmazlığı bunu diqtə edir. Doğrudur, İran və Pakistan banklarının filiallarının fəaliyyəti olsa da, onlar Azərbaycan Mərkəzi Bankının məcmu kapitalla bağlı qoyduğu tələbləri tam şəkildə yerinə yetirə bilmirlər. Bu səbəbdən yeni maliyyə təşkilatlarının bazara daxil olmasına ehtiyac yaranıb.

Onu da qeyd edək ki, "Banque Cantonale de Gen?ve" bankı Cenevrə iqtisadiyyatında mühüm yer tutur. Məlumatlara görə, bankın dövriyyəsi 22 milyard İsveçrə frankı təşkil edir. Maraqlıdır, belə bir bankın Azərbaycana gəlməsi bank sektoruna, xüsusən də kredit faizlərinə necə təsir edəcək?

İqtisadçı-ekspert Fuad İbrahimov bizimlə söhbətində qeyd etdi ki, xarici bankların ölkəmizə gəlişi yerli banklarda mövcud olan faiz dərəcəsinin düşməsinə səbəb ola bilər: "İsveçrənin BCGE bankının Azərbaycanın bank sahəsinə maraq göstərməsinin səbəbi ölkəmizin maliyyə, əsasən də bank sektorunun açıq şəkildə cazibədarlıq prinsiplərinə yiyələnməsinin nəticəsidir. Azərbaycan belə bir siyasəti irəli sürməsəydi, şübhəsiz ki, heç bir xarici bank ölkəmizin bank sektorunda hər hansı bir iş görməyə maraq göstərməzdi".

*"...xarici bankların gəlişi maliyyə sektorumuza və kredit faizlərinin enməsinə müsbət təsir göstərəcək"*

İqtisadçının fikrincə, hər hansı bir ölkənin xarici bankı ölkəmizdə fəaliyyət göstərərsə, bu hal ölkədə kredit faiz dərəcələrinə təsir edər: "Nəzərə almaq lazımdır ki, kapital axını və kapital yerləşdirilməsində bolluq yaranarsa, sağlam rəqabət də yaranar. Şərt o deyil ki, xarici kapital Azərbaycandakı hər hansı bir bankda yerləşdirilsin, bütün hallarda, həmin vəsait dövriyyəyə cəlb olunmalı və mənfəət gətirməlidir. Bu nöqteyi-nəzərdən xarici bankların gəlişi maliyyə sektorumuza və kredit faizlərinin enməsinə müsbət təsir göstərəcək".

Həmsöhbətimiz onu da vurğuladı ki, hazırda Azərbaycan qanunvericiliyi, texniki potensialı, eyni zamanda, infrastrukturu müasir dövrün tələblərinə cavab verir: "Bank sektorumuz texniki cəhətdən inkişaf etmiş ölkələrin bank sektorundan geri qalmır. Lazım olan hər bir mexanizm var. Sadəcə olaraq, bu mexanizmləri müasir dövrün tələblərinə uyğun hərəkətə gətirmək lazımdır. Həmin mexanizmlərin hərəkətə gətirilməsi də yenilik kimi, əlbəttə ki, maliyyə və bank sektorumuza müsbət cəhətlər vəd edəcək. Xarici bankların gəlişilə, habelə Mərkəzi Bank da buna dəstək olsa, hazırda mövcud olan faiz dərəcələrinin haradasa, ən azından, 20-30 faizə qədər düşməsi gözlənilləndir" .

***Günel CƏLİLOVA***

# Turistlərin Azərbaycana saxta dollar partiyaları gətirmək təhlükəsi getdikcə artır

**Turizm artıq bütün dünyada ən gəlirli sahələrdən birinə, geniş və sürətlə inkişaf edən iqtisadi sektora çevrilib. Yaradılan iqtisadi sektor özünü yeni iş yerlərinin açılması, turizmlə bağlı müəssisələrin və infrastrukturun qurulması ilə göstərir. Görülən işlər sayəsində son illər ölkəmizə gələn turistlərin sayı günügündən artır.**



***Natiq Cəfərli:** "Bu gün əksər dünya ölkəsində turistlər tərəfindən gətirilən saxta pullarla bağlı problem yaşanır"*

Xüsusilə ərəb ölkələrindən ölkəmizə səfər edənlərin sayında artım qeydə alınır. Təbii ki, turist sayının artması ölkə iqtisadiyyatına müsbət təsir edir. Həm ölkəyə daxil olan xarici kapitalın həcmi artır, həm də ölkəmiz beynəlxalq aləmdə tanınır.

Qeyd etdiyimiz kimi, turistlərin ölkəmizə marağı artır. Bəzi hallarda turistlər ölkəmizə xeyir deyil, problem də gətirirlər. Məlumatlara görə, ölkəmizə gələn turistlər arasında saxta dollar gətirənlər də var.

Bu haqda sosial şəbəkə istifadəçisi Aysel Ələkbərzadə öz "Facebook" səhifəsində yazıb. O qeyd edib ki, son iki gün ərzində təkcə bir banka 4 dəfə saxta dollar gətirilib. Amma bu pullarla gələnlərin heç biri əcnəbi deyil: "Məsələ ondadır ki, ölkəyə saxta əskinas gətirən əcnəbilər bunları əsasən taksi sürücülərinə, yolüstü restoranlara, iaşə obyektlərinin işçilərinə, dolayısı ilə sadə adamlara verirlər. Həmin məqamlarda əskinasın keyfiyyətini yoxlamaq mümkün deyil. İş ortaya sadə adamlar pulu manata dəyişmək istəyəndə üzə çıxır".

Aysel Ələkbərzadə qeyd edir ki, belə əskinaslardan biri ona da verilib: "Sonradan saxta 100-lük dolları banka təhvil verdim".

Məsələ ilə bağlı fikir bildirən iqtisadçı-ekspert Natiq Cəfərli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu gün əksər dünya ölkəsində turistlər tərəfindən gətirilən saxta pullarla bağlı problem yaşanır: "Ölkə qanunvericiliyinə əsasən, hər hansı bir xidmətə görə ödəniş xarici valyuta ilə qəbul oluna bilməz.

*"Vətəndaşlar aldanmamaq üçün turistlərdən ödənişi dollarla deyil, milli valyutada etmələrini tələb etsinlər"*

Hətta buna görə qanunvericilikdə cəza da nəzərdə tutulub. Taksi sürücüləri, iş adamları, iaşə obyekləri bilməlidirlər ki, xarici vətəndaş öz valyutasında və ya dollarla ödəniş etmək istəyirsə, bu hal gerçəkləşə bilməz. Bunun üçün yerli vətəndaşlar istənilən banka müraciət edib, həmin valyutanı manata çevirə bilərlər.

Bankların hər birində valyutanın saxta olub-olmadığını müəyyən edən xüsusi aparat var. Beləliklə, vətəndaşlar aldanmamaq üçün xaricilərin ödəniş etmək istədikləri valyutanı banka təhvil verməklə valyutanı çevirə bilərlər. Onu da bildirim ki, bu gün bankların, demək olar ki, hamısı 24 saat fəaliyyət göstərir. Bu səbəbdən də vətəndaşlar vaxt problemini düşünmədən istənilən an banka yaxınlaşa bilərlər".

Həmsöhbətimiz qəzetimiz vasitəsilə ictimaiyyətə müraciət etdi ki, vətəndaşlar aldanmamaq üçün turistlərdən ödənişi dollarla deyil, milli valyutada etmələrini tələb etsinlər. Əgər onlar milli valyuta olmadığını deyərsə, o zaman həmin turistlə birgə istənilən banka yaxınlaşıb valyutanı manata çevirə bilərlər. Belə olarsa, dövriyyəyə saxta pul daxil olmaz.

***Günel CƏLİLOVA***

# Dövlətin kinematoqrafiyaya ayırdığı pullar hara və necə xərclənir...



## Hüseyn Mehdiyev: "...səmərəli xərclənmir"

## Şamil Əliyev: "Kinoya ayrılan vəsaitdən səmərəli istifadə etmək artıq biz kinematoqrafların üzərinə düşən vəzifələrdən biridir"

**Azərbaycan kinosunun inkişafında dövlət maraqlıdır. İndiyə qədər milli kino sənayesinin formalaşdırılması, kadr potensialının gücləndirilməsi, yeni filmlərin istehsal edilməsi və sair üçün dövlət büdcəsindən kifayət qədər vəsait ayrılıb. Dövlət mütəmadi olaraq kinematoqrafiya sahəsinə maliyyə ayırır.**

Gələn il Azərbaycan kinosunun inkişafına 7,5 milyon manat vəsait ayrılması planlaşdırılır.

Bu məsələ Azərbaycan Respublikasının 2020-ci ilin dövlət və icmal büdcələri üzrə sənəd layihəsində öz əksini tapıb. Azərbaycan kinosunun inkişafı ilə bağlı xərclərə 7,5 milyon manat, 2019-cu illə müqayisədə milyon manat va ya 5,0 dəfə çox vəsait ayrılacaq.

Qeyd edək ki, bu ilin mart ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan kinematoqrafiyasının inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncam imzalayıb.

Məlumat üçün bildirək ki, davamlı olaraq dövlət büdcəsindən kinematoqrafiya sahəsinə ayrılan vəsaitlərin səmərəli xərclənməsi ilə bağlı şübhələr gündəmdə olub. Bir qisim kino xadimi hesab edir ki, dövlət büdcəsindən ayrılan vəsait səmərəli şəkildə xərclənmir, bəziləri isə əksini söyləyir.

Gizlin deyil ki, dövlət büdcəsindən ayrılan vəsait hesabına filmlər çəkilib. Amma ekspertlərin bir qisminin fikrincə, bu vəsaitin xərclənməsində qeyri-şəffaflığa yol verilib.

Professional Kinorejissorlar Gildiyasının rəhbəri, tanınmış kinorejissor-ssenarist Hüseyn Mehdiyev "Bakı-Xəbər"ə açıqlamasında kinoya ayrılan vəsaitin səmərəli şəkildə xərclənmədiyini qeyd etdi: "Xeyr, səmərəli xərclənmir. Ümumən götürdükdə münasibət bir az konseptual deyil. Vəsaitin necə xərcləndiyini artıq o zaman demək olar ki, bu sahədə hər şey qaydasında olsun, struktur formalaşdırılsın, qaydalar yaradılsın, xüsusi təşkilat olsun. Yəni bütün sistem işlək olduqdan sonra bu məsələni gündəmə gətirmək olar. İndi bu sistemin heç biri işləmir və hər şey başlı-başınadır. Prezident kino konsepsiyasının hazırlanması ilə bağlı fərman verdi. O fərmanda nəzərdə tutulan məsələlərin icra edilməsinin vaxtı çoxdan keçib, lakin heç bir tərpəniş yoxdur, heç kəs bu istiqamətdə addım atmaq istəmir. Mənə elə gəlir ki, Prezidentin fərmanında nəzərdə tutulan məsələləri icra etmək istəmirlər. Yəni o mənada kı, fərmanın tələbləri reallaşmır. Əgər reallaşmırsa, kinoya ayrılan vəsaitin nə xeyri olacaq? O konsepsiya niyə yazılmışdı? Çünki vəsaiti büdcədən ayırana qədər kinonun inkişaf konsepsiyası yaradılmalı və təsdiq olunmalı idi ki, o pulların xərclənməsi istiqaməti də müəyyən edilsin. O cümlədən, bu məsələ həmin konsepsiyada öz əksini tapacaqdı. Kinoya ayrılacaq vəsaitin həcmi açıqlanıb. Bir məmur deyəcək ki, bu vəsaiti kommersiya filmlərinə ayıraq, başqa birisi sənətə ayıraq deyəcək. Belə olmaz. Hər şeyin əsasında konseptual münasibət durur. Kinoya hələ də münasibət mənfidir. Biz kinoya məmurların münasibətini konsepsiya təsdiq edildikdən, bu sahədə idarəetmə sistemi yaradıldıqdan sonra görəcəyik. Çünki hazırda kinonun rəhbəri yoxdur, bu sahəni başsız qoyublar".

Tanınmış kinorejissor Şamil Əliyev isə hesab edir ki, kinoya ayrılan vəsaitin səmərəli xərclənməsi kinematoqraflardan asılıdır. "Azərbaycanda dövlət tərəfindən həmişə kinematoqrafiya sahəsinə dəstək göstərilib. Müstəqillikdən sonra ulu öndər kino haqqında ilk qanunu imzaladı və bununla da kinoya diqqətin, qayğının əsası qoyuldu, bu indiyə qədər də davam edir. Bu sahəyə davamlı olaraq dövlət büdcəsindən vəsait ayrılır. Kinoya ayrılan vəsaitdən səmərəli istifadə etmək artıq biz kinematoqrafların üzərinə düşən vəzifələrdən biridir. Artıq bu sahədə yeni qaydalarla işləmək lazımdır. Biz bu yaxınlarda "Azərbaycan kino günləri" tədbirləri çərçivəsində Özbəkistanda olduq. Orada da kinoya dövlət qayğısı var. 30 tammetrajlı, 30-a yaxın sənədli, 20 animasiya filmi istehsal etməyi dövlət öz üzərinə götürüb. Ümumiyyətlə, dünyanın bütün ölkələrində kinoya dəstəyi dövlət verir. Yalan söhbətdir ki, ABŞ-da, Fransada, yaxud başqa ölkələrdə kino müstəqildir. Dövlət müxtəlif fondlar vasitəsilə kinoya öz dəstəyini verir. Bizdə də elə fond yaradılsaydı, yaxşı olardı. Bu fondda münsiflər heyəti olmalıdır, bu münsiflərin dünyanın hər yerində olan qaydalarla işləməsi lazımdır. Filmin çəkilməsi üçün, ilk növbədə, ssenarinin seçilməsi vacib məsələdir.

Dövlətin prioritet saydığı ideyalar, mövzular var ki, onları hər zaman nəzərdə saxlamalıdır, onlara üstünlük verməlidir. Bir də ki, dövlətimiz müstəqildir və bizim özümüzün milli ideologiyamız var. Bu ideologiyanı müstəqillik, azərbaycançılıq, dövlətçilik naminə həmişə qorumaq lazımdır. Əsas səmərənin də biri odur ki, müştərək layihələrə dəstək vermək lazımdır. Müştərək layihələr o deməkdir ki, biz kino qanunvericiliyinə uyğun olaraq işlər görməliyik. Bizim qəbul etdiyimiz kino haqqında qanunda, eləcə də digər sənədlərdə bütün məsələlər əks olunub. Sadəcə olaraq, o sənədlərə uyğun fəaliyyət göstərmək lazımdır" - deyə Ş.Əliyev qeyd etdi.

***İradə SARIYEVA***

№ 188 (4086) ■ Qiymәti: 40 qәpik

# BAKI XӘBӘR

23 OKTYABR 2019-cu il

www.baki-xeber.com


# Saxta xәbәrlәr yazan neyroşәbәkә yaradıldı

**Vaşinqton Universiteti vә süni intellektin tәdqiqi ilә mәşğul olan Allen adına İnstitut yalan xәbәrlәr yazan neyron şәbәkә yaradıblar.**

"İctnews.az" bildirir ki, süni intellekt Ayda faydalı qazıntıların hasilatı üçün ABŞ-da şirkәtin yaradılması ilә bağlı xәbәrin yayılması üçün nәşrlәrin materiallarından istifadә edib. Layihә müәllifləri qeyd edir ki, internetdә müxtәlif informasiya bolluğu saxta xәbәrlәrin yaradılmasına kömәk edir. Bununla yanaşı, alimlәr saxta xәbәrlәri hәqiqi xәbәrlәrdәn ayırmaq üçün üsulların mövcud olduğunu bildirirlәr. Yalan mәlumatların müәllifləri mövcud olmayan tәşkilatların mövcud olmayan ekspertlәrinә istinad etmәklә yanaşı, mövcud olmayan termin vә adlardan istifadә edirlәr. Mütәxәssislәrin sözlәrinә görә, neyroşәbәkә ilә generasiya edilmiş mәtni stilistik vә qrammatik sәhvlәr, elәcә dә, mәtnin quruluşundakı mәna vә mәntiqi qüsurlara görә müәyyәnlәşdirmәk mümkündür. Mütәxәssislәrin fikrincә, gәlәcәkdә süni intellekt vasitәsilә yaradılmış saxta xәbәrlәr belә yalan mәqalәlәrin ucuz vә asan yaradılması sәbәbindәn dezinformasiya vә tәbliğat üçün aktiv istifadә edilәcәk. Qeyd edәk ki, alimlәrin yaratdığı neyroşәbәkәnin mәtnlәri dәrc edilmәyib vә yalnız süni intellektin tәdqiqi vә işinin qiymәtlәndirilmәsi üçün istifadә olunub.




## Elan

Şәki rayonu, Qaratorpaq kәnd sakini Mәmmәdov Süleyman Rüstәm oğlunun vә ailә üzvlәrinin adına verilmiş JN: 0050 saylı torpağa mülkiyyәt hüququna dair dövlәt aktı itdiyi üçün etibarsız sayılır.

Şәki rayonu, Baş Göynük kәnd sakini Mustafayev Niyaz Mehrәli oğluna mәxsus 60 sot torpaq sahәsinin 052688 saylı kadastr sәnәdi itdiyi üçün etibarsız sayılır.

Әfәndiyeva Sevda Rәşid qızının adına, Bakı şәhәri, Yasamal rayonu, Fuad İbrahimbәyov küçәsi, ev 16 ünvanına verilmiş çıxarış (seriya MA № 0204605) itdiyi üçün etibarsız sayılır.

Qarayev İlqar Knyaz oğluna mәxsus, Bakı şәhәri, Yasamal rayonu, Zәrdabi küçәsi, 3166 mәhәllәdә inşa edilәn bina № 5, 13-cü mәrtәbә, 84 saylı mәnzilә "Sevinc-M" MMC tәrәfindәn verilmiş maliyyә arayışı vә alqı-satqı müqavilәsi itdiyi üçün etibarsız sayılır.

Sәlimov Sәid Sadiq oğluna mәxsus, Sabunçu rayonu, Lәhiş qәsәbәsindә yerlәşәn № 5757 bağ sahәsinә verilmiş müqavilә № 36318 itdiyi üçün etibarsız sayılır.

Әhmәdov Xәqani Hümbәt oğluna mәxsus, Sabunçu rayonu, Lәhiş qәsәbәsindә yerlәşәn №5756 bağ sahәsinә verilmiş müqavilә № 36317 itdiyi üçün etibarsız sayılır.

Әhmәdov Kamal Anar oğluna Bakı Dövlәt Rabitә vә Nәqliyyat Kollecindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Mehrәliyeva Ceyran Kamil qızına Azәrbaycan Dövlәt İqtisad Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Hüseynzadә İsmayıl Vәdadi oğluna Azәrbaycan Dövlәt İqtisad Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Yusifov Vüsal Oqtay oğluna Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Әliyev Vüsal İbadәt oğlunun adına, Bakı şәhәri, Yasamal rayonu, Zәrdabi küçәsi, 3166 mәhәllәdә, 1-ci yaşayış binasının 6.20 sәviyyәsindә yerlәşәn 14 saylı qarajın alqı-satqı müqavilәsi vә maliyyә arayışı itdiyi üçün etibarsız sayılır.

Qafarova Aybәniz Mәmmәd qızının adına, Bakı şәhәri, Nәrimanov rayonu, Hüseyn Arif küçәsi, ev 12 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Әhmәdova Sәbinә Dilavәr qızına Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Bahadurlu Cahandar Vüqar oğluna Azәrbaycan Dövlәt Bәdәn Tәrbiyәsi vә İdman Akademiyası tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

## "Nar" 4G istifadәçilәrinin sayı il әrzindә 85% artıb

**Bütün ölkә әrazisini sürәtli vә keyfiyyәtli şәbәkәilә әhatә edәn "Nar"ın 4G istifadәçilәrinin sayı sürәtlә artmaqdadır. Belә ki, ötәn ilin müvafiq dövrü ilә müqayisәdә mobil operatorun aktiv 4G istifadәçilәrinin sayı 85% artaraq 875 min nәfәri ötüb.**

Quraşdırılan baza stansiyalarının tәqdim etdiyi yüksәkkeyfiyyәtli mobil internet xidmәti nәticәsindә,internet trafikinin hәcmi 67% artıb. 4G smartfon penetrasiyasının artımı, LTE vә LTE-A texnologiyalı baza stansiyalarının genişlәnmәsi, müştәrilәrin internetә olan ehtiyaclarını qarşılamaq mәqsәdilә tәqdim edilәn mәhsullar "Nar"ın 4G istifadәçilәrinin sayının artmasına sәbәb olub. "Nar"ınLTE texnologiyalı baza stansiyalarını paytaxtla yanaşı, bölgәlәrdә, hәtta әn ucqar kәndlәrdә belә genişlәndirmәsi sayәsindә 4G internetindәn istifadә edәnlәrin sayı Bakı üzrә 78%, regionlar üzrә isә 101% artıb. Bununla da 4G istifadәçilәrinin 67%-i Bakının, 33%-i isә regionların payına düşür. Mobil operator LTE texnologiyalı baza stansiyaları Azәrbaycanın 53 regionunda quraşdırmağa nail olub.Qeyd edәk ki, "Nar"ın 4G şәbәkәsihazırda ölkә әhalisinin 91,5 %-ni әhatә edir. Mobil operatorun şәbәkәsi haqqında daha әtraflı mәlumatı nar.az sәhifәsindәn әldә etmәk olar. "Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib."Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib. 2017-ci ildә keçirilmiş mobil rabitә şәbәkәlәrinin müqayisәli testlәrinә әsasәn "Nar" şәbәkәsi mobil zәng xidmәtlәrinin göstәrilmәsi üzrә ölkәdә әn yüksәk nәticәyә nail olub. Sınaqları test xidmәtlәri üzrә müstәqil beynәlxalq şirkәt olan "P3 Communications" keçirib vә sınaq metodologiyası әhatәli xidmәtlәr üzrә müştәri tәcrübәsinә әsaslanıb.




**Qoç** - Yeni biliklәr vә mәlumatlar әldә etmәk üçün münasib zamandır. Maliyyә mәsәlәlәrinin çözülmәsindә ehtiyatlı olun. Gәrәkli informasiyanın olmaması itkilәr vә ya zәrәrә sәbәb ola bilәr.


**Buğa** - Günün ilk yarısında müsbәt tәmayüllәrin tәsiri güclü olacaq. Bir sıra mәsәlәlәrin hәllinin öhdәsindәn asanlıqla gәlәcәksiniz. Әn çәtin problemlәrin çözülmәsi zamanı standart düşünmәyin.


**Әkizlәr** - Mәqsәdlәrin seçimi vә planların hazırlanmasına diqqәtlә yanaşsanız, gün uğurlu olacaq. Xırdalıqlara vә detallara başdansovdu yanaşmayın. Gәrәkli nәticәnin әldә olunması üçün çox işlәmәli olacaqsınız.


**Xәrçәng** - Hadisәlәrin axarı sakitlik vә tәmkin tәlәb edir. Yeni mәlumatlar әldә edin, maraqlandığınız predmetlә bağlı informasiya toplayın. Dedi-qodu etmәyin, qeybәtә varmayın.


**Şir** - Qarşınızda böyük perspektivlәr var. Başqalarının görә bilmәdiklәri vә imtina etdiklәri işi yerinә yetirәrәk başa vura bilәrsiniz. Yeni layihәni, alınan sifarişi vә ya tapşırığı tәhlil edin.


**Qız** - Yaxşı ideyalarınız pis deyil. Mәqsәdә çatmaq üçün başqalarının tәcrübәsindәn yararlana bilәrsiniz. Uğurlar gözlәntilәrinizdәn dә artıq olacaq. Qәfil tәkliflәr vә dәvәtlәr istisna deyil.


**Tәrәzi** - Adi günlәrdәn fәrqli olaraq fikir ayrılıqları vә mübahisәlәr çoxdur. Situasiya günün ilk yarısında bәzi aktual mәsәlәlәrin hәllindә çәtinliklәr yaradacaq. Ev işlәri vә ailә qayğıları diqqәti cәmlәmәyә mane olacaq.


**Әqrәb** - Çoxdankı plan vә ya mәqsәdlәrdәn birinin reallaşdırılması üçün әlverişli zamandır. Peşәkar fәaliyyәt müstәvisindәki manelәri dәf edin. Şәxsi münasibәtlәrdәki çәtinliklәrin aradan qaldırılması üçün sәy göstәrin.


**Oxatan** - Çox xoş gündür. Başladığınız işlәri uğurla başa vuracaqsınız. Xoş sürprizlәr, gözlәnilmәz gәlir, sürpriz ola bilәr. Son vaxtlar sizi narahat edәn problemlәri tezliklә hәll edә bilәrsiniz.


**Oğlaq** - Günün ilk yarısında emosiyalarınıza nәzarәt edin. Yaxın әtrafınızdakı insanları tәxribata çәkmәyin, qıcıqlandırmayın. Soyuqqanlı vә mәntiqli olsanız, yaranan problemlәri hәll edә bilәrsiniz.


**Dolça** - Qarşınıza qoyduğunuz mәqsәdә çatmaq üçün müsbәt tәmayüllәrin tәsirindәn sәmәrәli istifadә edin. Yaxınlarınız sizә yardım edәcәklәr. Dәstәk gözlәmәdiyiniz insanlar bu gün yanınızda olacaqlar.


**Balıqlar** - Ziddiyyәtli gündür. Mәnfi tәmayüllәrin tәsiri әfsuslar olsun ki, güclüdür. Genişmiqyaslı planlarınız vardısa, onları unudun. Mühüm işlәr görmәk fikriniz varsa, ertәlәyin.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Vatikanda "ağıllı" tәsbeh yaradıldı

**Vatikanda müasir texnologiya vә qurğuları sevәn gәnc katoliklәrin kilsәyә cәlb edilmәsi mәqsәdilә "ağıllı" tәsbeh buraxılıb.**

"İctnews.az" bildirir ki, "eRosary" adlı qurğu 10 әqiq vә gematit muncuq dәnәsini özündә birlәşdirәn kiçik tәsbeh vә elektron proqram tәminatının quraşdırıldığı xaçdan ibarәtdir. Tәsbeh dini mәzmunlu xüsusi mobil proqram vasitәsilә sinxronlaşır. Bundan başqa, qurğunu aktivlәşdirmәk üçün xaç vurmaq tәlәb olunur. Proqram işә salındıqdan sonra "eRosary" istifadәçisi müvafiq duanı seçә bilәcәk. Öz növbәsindә proqram istifadәçinin tәsbehdәn necә vә nә qәdәr istifadә etmәsi haqqında mәlumatları yaddaşda saxlayır. Bundan әlavә, tәsbehi bilәyә taxmaq mümkündür - qurğu adi fitnes bilәrziyi kimi addım vә digәr sağlamlıq göstәricilәrini qeydә alacaq. Layihә dünya katoliklәrinin mobillәşdirilmәsinә yönәlәn "Pope's Worldwide Prayer Network" proqramının tәrkib hissәsidir. Qurğu Vatikanın sifarişi әsasında "GadgeTek Inc" şirkәti tәrәfindәn hazırlanıb. "eRosary" "ağıllı" tәsbehinin qiymәti 99 avro tәşkil edir.

*Hazırladı: Ramil QULİYEV*


Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.